www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 oktyabr 2015-ci il Cümə axşamı № 240 (6268) Qiyməti 40 qəpik

**Xəbər**

**Fikrət Məmmədov milli təhlükəsizlik naziri ola bilər**

yazısı səh.2-də

**Gündəm**

**Müsavat parlament seçkilərini boykot etdi**

Partiya Divanının iclasında verilən yekun qərarla namizədlər geri çəkildi, ancaq müşahidə sonadək davam edəcək...

yazısı səh.4-də

**Rabitə Nazirliyinin həbs olunan aparat rəhbərinin qardaşı işdən çıxarıldı**

yazısı səh.2-də

**Azərbaycanda seçki tarixində ilk hadisə**

yazısı səh.3-də

**Etibar Əliyev "Texnika Bank"ı dirçəldə biləcəkmi...**

yazısı səh.5-də

**Pənah Hüseyn Sabirabadda seçicilərlə görüşləri davam etdirir**

yazısı səh.3-də

**"Yeni Müsavat"ın rəhbərliyindən hökumətə maraqlı təklif**

yazısı səh.6-da

**Qərb Belorusla niyə barışdı; rəsmi Bakının hədəfdə olmasının pərdəarxası**

yazısı səh.8-də

**Hüquq müdafiəçiləri həbs edilən MTN-çiləri müdafiə edəcəklərmi?**

yazısı səh.11-də

**Sahibkarlarla bağlı qərar rəsmiləşdi, nəticə olacaqmı...**

yazısı səh.13-də

**Bakıda həkim klinikanın direktoruna 30 min "atıb"**

yazısı səh.14-də

**REAL seçkinin nəticələrini tanımayacaq...**

yazısı səh.10-da

**Məmura hirslənib ürəyi dayanan şəhid atasının hekayəsi...**

yazısı səh.15-də

## Sabiq nazirin görünməyən gücü

# MAHMUDOVU BİTİRƏN SƏBƏB: "DAXİLDƏ ÇEVRİLİŞ"

Siyasi və dini müxalifətə ən müxtəlif üsullarla təsir imkanları yaratmış Eldar Mahmudov ölkənin siyasi nəbzini müəyyənləşdirən "Ag evi" qabaqlamağa, özünün prezident üçün önəmini qabartmağa çalışıb; iqtidar- müxalifət görüşlərini təşkil edən Prezident Administrasiyasına qarşı da çıxan məhz MTN şefi olub və həm də gizli səsyazısı ilə...



yazısı səh.5-də

## Kremldən Bakıya qorxulu seçki sürprizləri - kartlar açılır

1 noyabr səsverməsi başlamamış nəticələrini tanıyan Rusiyanın Azərbaycanı Qərbdən qorumaq canfəşanlığının arxasında nə durur?..

yazısı səh.9-da



**Sabiq nazirin qruplaşmasının gizli "pul kisəsi" və silahı - vəhhabilər**

yazısı səh.7-də



**Elşad Abdullayev qardaşının işdən çıxarılmasından danışdı**

yazısı səh.12-də



*Namiq Həsənov:*

**"Ziya müəllimi 13 ildə jurnalistlər 130 dəfə işdən çıxarıb"**

yazısı səh.11-də

# Müsavat başqanı Arif Hacılı medianı çağırır

**Müsavat Partiyasının başqanı Arif Hacılı 28 oktyabr 2015-ci il tarixdə saat 14:00-da Müsavat Partiyasının mərkəzi qərargahında seçki kampaniyasının gedişi ilə bağlı mətbuat konfransı keçirəcək. Bu barədə musavat.com-a partiyanın mətbuat xidmətindən məlumat verilib.**

Qeyd olunur ki, mətbuat konfransına bütün KİV-lərin nümayəndələri dəvətlidirlər.

Musavat.com-un əldə etdiyi məlumata görə, mətbuat konfransında seçkilərində partiyanın parlament seçkilərində iştirakının davam edib-etmədiyinə dair məsələyə aydınlıq gətiriləcək.














## Mərkəzi Bank bu banklarda yoxlamalara başladı




**Azərbaycan Mərkəzi Bankı ölkənin 3 aparıcı bankında davamlı yoxlama tədbirlərinə başlayıb. Fins.az-ın əldə etdiyi məlumata görə, söhbət sistem əhəmiyyətli "Azərbaycan Beynəlxalq Bankı", "Kapital Bank" və "Unibank"dan gedir.**

Yoxlamalar beynəlxalq təcrübəyə uyğun olaraq həyata keçirilir. "Davamlı yoxlamalarda məqsəd bank sektorunda yarana biləcək problemləri yerindəcə həll etməkdir", - deyə məlumatda bildirilir.

## Şeyx Moskvaya gedir

**Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə oktyabrın 28-də Rusiyaya səfərə gedir. İdarədən virtualaz.org-a verilən məlumata görə, səfər Moskva şəhər hökumətinin təşkilatçılığı, RF Prezidenti yanında dini təşkilatlarla iş üzrə Şuranın beynəlxalq əməkdaşlıq Komissiyasının, habelə Rusiya Dinlərarası Şurasının dəstəyi ilə 29 oktyabr tarixində keçirilən «Din və Sülh» mövzusunda III Moskva Beynəlxalq Forumuna dəvət əsasında həyata keçirilir.**

Şeyxülislam Beynəlxalq Forumun plenar iclasında məruzə ilə çıxış edəcək.

QMİ sədri səfər çərçivəsində Moskva və bütün Rusiya Patriarxı Kirillə görüşəcək. Səfər müddətində digər görüşlərin də keçiriləcəyi nəzərdə tutulur.


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;





## Türkiyə "Qazprom"u beynəlxalq məhkəməyə verdi

**Türkiyənin dövlət şirkəti BOTAŞ Beynəlxalq Arbitraj Məhkəməsində Rusiyanın təbii qaz inhisarçısı "Qazprom"a qarşı iddia qaldırıb.**

APA-nın "Bloomberg"ə istinadən verdiyi məlumata görə, səbəb qiymət məsələsində tərəflərin razılığa gələ bilməməsidir.

BOTAŞ 2014-cü il dekabrın 29-dan bəri Rusiyadan aldığı təbii qazın qiymətinə yenidən baxılmasını tələb edir. Hər iki ölkə 2014-cü ildə qazın qiymətində endirim edilməsində anlaşıb, lakin bu məsələ "Türk axını" boru kəmərinin tikintisindən asılı vəziyyətə gətirilib. Bu il iyulun sonlarında "Türk axını"nın tikintisi üzrə danışıqların dondurulduğu açıqlanıb. Bunun səbəblərindən biri kimi Rusiyanın endirimə getməməsi göstərilib.

**Türkiyənin enerji və təbii ehtiyatlar naziri Əli Rza Alaboyun "Doğan" xəbər agentliyinə açıqlamasında oktyabrın 26-da beynəlxalq arbitraja rəsmi müraciət etdiklərini bildirib:** "Biz qiymətlərin yüksək olduğunu söylədik və endirim istədik. Əvvəlcə Rusiya tərəfi ilə bu barədə razılaşdıq, lakin müqavilədə nəzərdə tutulduğu vaxt ərzində danışıqlar yekunlaşsa da, razılaşma imzalanmadı. Son bir ayda intensiv yazışma aparırdıq, lakin bir nəticəsi olmadı. Müəyyən dövr ərzində arbitraja getmək hüququmuz vardı və bundan istifadə etdik. Müraciətimizdə bizə satılan təbii qazın qiymətinin Avropadakı qiymətlərə eyni olmasını tələb etdik. Yəni hazırda Rusiya ilə arbitrajdayıq".

## Azərbaycanın Avropa Məhkəməsindəki hakimi ilə bağlı məsələ aprelə qaldı

**"Azərbaycan hakimiyyəti Avropa İnsan Hüquqları Məhkəməsində yeni hakim postuna namizədlərini gələn ilin yanvarına kimi təqdim etməlidir".**

APA-nın xəbərinə görə, bunu Azərbaycanın Avropa İnsan Hüquqları Məhkəməsindəki daimi nümayəndəsi, Azərbaycan Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin sektor müdiri Çingiz Əsgərov deyib.

Çingiz Əsgərov bildirib ki, Azərbaycandan olan yeni hakimlə bağlı məsələyə Avropa Şurası Parlament Assambleyasının aprel sessiyasında baxılması planlaşdırılır.

O, həmçinin Məhkəmə Hüquq Şurasının namizədlərlə bağlı müsabiqə elan etdiyini açıqlayıb.

## SOCAR Beynəlxalq Bankdan 189 milyon manat kredit aldı

**SOCAR Azərbaycan Beynəlxalq Bankından 189 milyon manat məbləğində ilk kredit transını alıb. Bunu "Trend"ə açıqlamasında SOCAR-ın iqtisadi məsələlər üzrə vitse-prezidenti Süleyman Qasımov deyib. S.Qasımovun sözlərinə görə, bu məbləğin 120 milyon manatı qazma işlərinə xərclənəcək, daha 69 milyon manat isə Heydər Əliyev adına Bakı Neftayırma Zavodunun modernləşdirilməsinə sərf olunacaq.**

Xatırladaq ki, SOCAR-ın Beynəlxalq Bankdan alacağı kreditin ümumi məbləği 1,86 milyard manat təşkil edir.

## Üç dindar həbs olunub

**Bir müddət əvvəl Bakıda "Farklı Lahmacun" kafesində keçirilən əməliyyat zamanı saxlanılan şəxslərdən 3-ü inzibati qaydada həbs olunub. APA-nın məlumatına görə, Yasamal Rayon Məhkəməsinin qərarı ilə Qədirov Anar Şahin oğlunun barəsində 4 sutka, Həsənov Sadiq Aydın oğlu və Mustafayev Kamran Eldar oğlunun hər birinin barəsində isə 5 sutka müddətinə inzibati qaydada azadlıqdan məhrum etmə cəzası təyin edilib. Həmin şəxslər İnzibati Xətalar Məcəlləsinin 310.1-ci (polis əməkdaşlarına müqavimət göstərmə) maddəsinə əsasən ittiham olunublar.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumata görə, daxil olmuş məlumat əsasında Yasamal Prokurorluğu, Milli Təhlükəsizlik Nazirliyinin Rayon İdarəsi və Polis İdarəsinin əməkdaşları oktyabrın 22-də saat 21 radələrində Yavər Fərzəliyevə məxsus "Farklı Lahmacun" çay evində əməliyyat tədbiri keçiriblər. Nəticədə çay evinin zirzəmisində qanunvericiliklə müəyyən edilməmiş qaydada təşkil olunan dini yığıncaqda iştirak edən, aralarında azyaşlılar da olmaqla 42 nəfər saxlanılıb.

Həmin ünvana baxış zamanı dini nifrət aşılayan və dözümsüzlüyü təbliğ edən müxtəlif məzmunlu kitablar və digər növ ədəbiyyat aşkar edilərək götürülüb.

Qanunsuz yığıncağın təşkilatçıları - Zaqatala rayon sakinləri Kamran Mustafayev, Adil Rəcəbov və Bakı şəhər sakini Zaur Şabanov şübhəli şəxs qismində saxlanılıb və barələrində Cinayət Məcəlləsinin 168-ci (dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarını qəsb etmə) maddəsi ilə cinayət işi başlanılıb.

Digər iştirakçılar isə cərimə olunaraq azadlığa buraxılıblar.

### Başsağlığı

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı vicdan məhbusu Əli İnsanova qardaşının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

## General Çovdarovun oğlu işdən çıxarıldı

**MTN-in idarə rəisi, eks-nazir Eldar Mahmudovun "kassiri" kimi tanınan general Akif Çovdarovun oğlu Ruslan Çovdarov Milli Məclis aparatındakı məsləhətçi vəzifəsindən çıxarılıb.**

Bu barədə virtualaz.org saytına məlumatlı mənbə bildirib.

Hazırda Milli Məclisin aparatında Akif Çovdarovun qohumu da işləyir, ancaq mənbə onun sonrakı taleyi barədə informasiyaya malik deyil.

## MTN-də daha bir general işdən çıxarıldı

**Milli Təhlükəsizlik Nazirliyində növbəti vəzifədən azad etmə və təyinat həyata keçirilib. "Qafqazinfo"ya daxil olan məlumata görə, nazirliyin istintaq idarəsinin rəisi general Mövlan Şıxəliyev vəzifəsindən azad olunaraq sərəncama götürülüb. Eyni zamanda Eldar Mahmudovun yaxın qohumu olan, nazirliyin əməkdaşı Elşad Mahmudov da işdən çıxarılıb.**

Həmçinin qeyd edək ki, bir neçə gün əvvəl isə işdən çıxarılan MTN-in Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəisi Sübahir Qurbanovu isə nazirliyin əməkdaşı Ceyhun Şadlinski əvəzləyib.

## Baş prokuror 5 rayonun sakinləri ilə görüşəcək

**Baş prokuror Zakir Qaralov cari il noyabrın 13-də saat 11:00-da Hacıqabul Rayon Prokurorluğunun inzibati binasında Şirvan şəhəri, Hacıqabul, Sabirabad, Salyan və Saatlı rayonlarında yaşayan vətəndaşları qəbul edəcəkdir.**

Qəbula gəlmək istəyən vətəndaşların qeydiyyatı və Hacıqabul şəhərinə gəlmələrinin təşkili müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcəkdir.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, onların rahatlığı üçün qəbula Baş Prokurorluğun Müraciətlərə Baxılması İdarəsinin 437-28-79 nömrəli telefonu-və contact@prosecutor.gov.az elektron poçt ünvanı vasitəsilə də yazıla bilərlər.

## İstanbulda antiterror əməliyyatı: Azərbaycanın 2 vətəndaşı qandallandı

**İstanbulda keçirilən antiterror əməliyyatı nəticəsində iki Azərbaycan vətəndaşı olmaqla ümumilikdə 21 nəfər tutulub. "Report" xəbər verir ki, bu haqda Türkiyə KİV-i məlumat yayıb.**

Məlumata görə, bu gün səhər saatlarında İstanbulun Sultanbəyli və daha iki başqa rayonunda terrorçu İŞİD qruplaşmasına qarşı 25 ünvanda eyni vaxtda əməliyyat keçirilib. Əməliyyat nəticəsində 2-si Azərbaycan vətəndaşı, 7-si uşaq olmqla 21 nəfər tutulub.

Xəbərdə bildirilib ki, İŞİD silahlıları həmin bölgələrdə özləri üçün məscid qurublar və bu məscid üçün imam axtarırmışlar.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Ali Məhkəmə də Pərviz Həşimlini həbsdə saxladı

## Jurnalistin işi ilə bağlı Avropa Məhkəməsinə müraciət olunacaq

**Oktyabrın 27-də Ali Məhkəmə 13 saylı cəzaçəkmə müəssisəsində saxlanılan jurnalist, hüquq müdafiəçisi Pərviz Həşimlinin şikayətinə baxıb. Pərviz Həşimli barəsində olan Bakı Apelyasiya Məhkəməsinin dekabrın 24-də 2014-cü ildə apelyasiya şikayətinə yekun iclas baxışı qərarından Ali Məhkəməyə şikayət verilmişdi. Hakim Fərhad Kərimovun sədrliyi ilə keçirilən prosesdə kasasiya şikayəti təmin olunmayıb.**

Prosesdə jurnalistin hüquqlarını vəkil Elçin Sadıqov müdafiə edib. Vəkilinin Pərviz Həşimovun məhkəməyə gətirilməsi barədə vəsatəti təmin olunmayıb. Daha sonra məhkəmə Pərviz Həşimli barəsində olan qərarı qüvvədə saxlayıb və kasasiya şikayətini də təmin etməyib.

Vəkilləri bu qərarları qanunsuz hesab edir və qərardan Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət edəcəklərini deyirlər. E.Sadıqov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, artıq məhkəmənin qərarı barədə P.Həşimliyə məlumat verib. O da qərarı ədalətsiz hesab edir və ondan Avropa Məhkəməsinə şikayət göndərilməsini istəyir.

Bu arada vəkil bildirdi ki, bəzi media orqanlarında P.Həşimlinin məhkəməsinin təxirə salınması ilə bağlı yanlış informasiyalar dərc edilib: "Bəli, biz prosesdə Pərviz Həşimlinin iştirak etməsi üçün prosesin təxirə salınmasını istəyirdik. Amma bizim bu vəsatətimiz rədd edildi və məhkəmə onun barəsindəki həbs qərarını qüvvədə saxlayaraq, kasasiya şikayətini təmin etmədi".



**P.Həşimlinin atası Kamran Həşimov oktyabrın 26-da prezident İlham Əliyevə müraciət edərək, oğlunun azadlığa buraxılmasını istəmişdi.** "Oğlumu şərləyərək həbs edənlər qondarma istintaqda açıq şəkildə oğluma demişdilər ki, ölkənin yiyələri bizik və bizim bir sözümüzü iki edən ya həbsdə, ya o dünyada, ya da canını qurtarmağa nail olanlar mühacirətdədir" müraciətdə bu fikirlər də yer almışdı.

Pərviz Həşimli 2013-cü il sentyabrın 17-də Milli Təhlükəsizlik Nazirliyinin keçirdiyi əməliyyatla saxlanılıb, evində və iş yerlərində axtarış aparılıb. Bakı Ağır Cinayətlər Məhkəməsinin 15 may 2014-cü il tarixli hökmü ilə Pərviz Həşimli 8 il, Təvəkkül Qurbanov isə 8 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər. Pərviz Həşimli 2013-cü il oktyabrın 22-də "Amnesty International" beynəlxalq hüquq müdafiə təşkilatı tərəfindən "vicdan məhbusu" elan olunub.

❑ **Sevinc TELMANQIZI**

# Etibar Əliyev "Bank Technique"yə qaytarıldı

## O, dünəndən etibarən Müşahidə Şurasının rəhbəri kimi işə başlayıb; ekspertlər E.Əliyevin bank sektoruna qayıdışını müsbət tendensiya adlandırırlar



**Musavat.com-a daxil olan məlumata görə, Azərbaycanın tanınmış və peşəkar bankçısı Etibar Əliyev əvvəllər rəhbəri olduğu "Bank Technique"yə yenidən rəhbər gətirilib. O, oktyabrın 27-dən etibarən "Bank Technique"nin Müşahidə Şurasının sədri seçilib. Artıq E.Əliyev bankın mərkəzi ofisində iş başındadır.**

Əldə etdiyimiz məlumata görə, E.Əliyev oktyabrın 27-də Mərkəzi Bankın rəhbəri Elman Rüstəmovla görüşüb. Bundan sonra o, "Bank Technique"nin mərkəzi ofisinə gedib.

Xatırladaq ki, E.Əliyev uzun illər "Texnikabank"ın (əvvəlki adı belə olub-red.) Müşahidə Şurasının sədri olub. Bankın qurulmasında və inkişafında böyük xidmətləri olub.

Ekspertlər E.Əliyevi peşəkar bankçı kimi qiymətləndirir və onun yenidən işinin başına dönməsini iqtisadiyyatda, bank sektorunda ciddi hadisə adlandırırlar. Adının çəkilməsini istəməyən ekspert bildirib ki, bu həm haqq-ədalətin bərpası, həm də iş sektorunun, biznes mühitinin uğuru kimi qiymətləndirilə bilər. Ekspert həmçinin belə bir mesaj da verib: "İş adamlarının gözləri aydın!"

Qeyd edək ki, E.Əliyev 2012-ci ilin mart ayında vəzifəsindən çıxarılmışdı. Ondan sonra "Texnikabank"ın adı dəyişdirilərək, "Bank Technique" olmuşdu. Bu bank Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyevin nəzarətinə verilmişdi. Qısa müddətdən sonra "Bank Technique" çökdürüldü. Hazırda bank müflis vəziyyətdədir. Ekspertlər onu da bildirirlər ki, E.Əliyev yaxın müddətdə "Bank Technique"nin həm köhnə nüfuzunu geri qaytara biləcək, həm gücləndirəcək, həm də batmaqda olan bankı yenidən dirçəldəcək.

❑ **Cavanşir ABBASLI**

# Əli İnsanov qardaşının yasına buraxılmadı

## Vəkil: "Bizə bildirdilər ki, onun saxlanıldığı rejim buna imkan vermir"



**Xəbər verildiyi kimi, sabiq səhiyyə naziri Əli İnsanovun qardaşı Məhəmməd İnsanov vəfat edib. Qardaşının yas mərasimində iştirak etmək üçün sabiq səhiyyə nazirinin saxlanıldığı 13 saylı cəzaçəkmə müəssisəsinin rəhbərliyinə müraciət olunmuşdu.**

Həbsxana rəhbərliyi Ə.İnsanovun qardaşının yas mərasimində iştirakına icazə verməyib. Bu barədə musavat.com-a sabiq nazirin vəkili Toğrul Babayev məlumat verdi: "Əli İnsanov qardaşının yas mərasiminə buraxılmayacaq. Bizə bildirdilər ki, onun saxlanıldığı rejim buna imkan vermir. Biz hüquqlarımızdan istifadə edərək cəzaçəkmə müəssisəsinin rəhbərliyinə müraciət etdik. Onlar da belə bir qərar qəbul etdilər. Bu Əli İnsanovun işidir. Başqa heç nə demək mümkün deyil. Bu xəbərdən sonra onun özü ilə görüşməmişəm. Sadəcə, mənə bu məlumatı verdilər".

Xatırladaq ki, sabiq nazir İnsanov 2005-ci ilin oktyabrında parlament seçkiləri öncəsi dövlət çevrilişinə cəhdə hazırlıq ittihamı ilə həbs edilib. Sonradan ittiham iqtisadi cinayətlərlə əvəz olunub və o, 11 il azadlıqdan məhrum edilib.

❑ **Cavanşir ABBASLI**

# "Öz partiyanızda üsyana qalxın, liderlərinizi devirin"

## Yeni AXCP-nin sədri gəncliyə və müxalifət liderlərinə səsləndi; Kərimli qanadının qurultayı ilə bağlı məhkəməyə müraciət hazırlanır

**Azərbaycan Xalq Cəbhəsi ətrafında cərəyan edən proseslər davam edir. Buna səbəb qurum daxilindəki narazı qanadların keçirdikləri qurultay, Ədliyyə Nazirliyinin hansı tərəfi tanıyacağı ilə bağlı yaranan suallardır.**

AXCP-nin Əli Kərimli qanadı artıq sentyabrın 27-də keçirdiyi qurultayın nəticələrinin tanınması ilə bağlı Ədliyyə Nazirliyinə sənədləri təqdim edib. Razi Nurullayev qanadı isə hələ də qurultay sənədlərini təqdim etməyib. Narazı tərəf Kərimli qanadının saxta qurultay keçirdiyi iddiası ilə məhkəməyə müraciət edəcək.

Bu barədə "Yeni Müsavat"a açıqlamasında yeni AXCP-nin sədri **Razi Nurullayev** məlumat verdi: "Ədliyyə Nazirliyinə sənədləri hələ də təqdim edə bilməmişik. Amma sənədlər tam hazırdır. Bununla bağlı mətbuata açıqlama verəcəyik. Biz bu məsələyə sıradan bir məsələ kimi yanaşmırıq. Ciddi hüquqşünaslarla məsləhətləşmələr aparmışıq. Mərhələ-mərhələ addımlarımızı atırıq. Burada Azərbaycan siyasətinin gündəmini dəyişəcək hadisədən söhbət gedir. Səhv etmək istəmirik. AXCP-nin hüquqi təmsilçiliyinin əldə olunmasında israrlıyıq. Hər bir sənədin üzərində əsirik. Sənədləri təqdim edəndə mətbuata açıqlama verəcəyik".

**R.Nurullayev sənədlərin yubanmasının onlara problem yaratmayacağı qənaətindədir:** "İndiki mərhələdə sənədlərin gecikməsinin bizə problem yaradacağını demək olmaz. Sənədlərimizin gecikməsi ilə bağlı Ədliyyə Nazirliyinə izahat göndərmişik. Hüquqşünaslar məsləhətləşmələr aparırlar. Çox yaxın zamanda sənədləri nazirliyə təqdim edəcəyik".

**Yeni AXCP-nin sədri əks qanadın qurultayı ilə bağlı məhkəməyə şikayət edəcəklərini bildirdi:** "Kərimlinin qurultayının legitim olmasını qəbul etmirik. Bununla bağlı ciddi əsaslarımız var. Məhkəməyə yəqin ki, müraciətimiz olacaq. Düşünürəm ki, bu ciddi gündəm yaradacaq. Müəyyən faktlar toplamışıq. Biz əsl AXCP-nin bərpa olunmasında, Elçibəy ruhunun partiyaya qaytarılmasında israrlıyıq. Ədliyyə Nazirliyinə və məhkəməyə müraciətimizin hansının tez olacağı ilə bağlı hüquqşünasların yerinə danışa bilmərəm. Hüquqi çərçivədə atılmalı olan addımlar həyata keçirilir. Çalışırıq ki, xeyrimizə olmayan vəziyyət yaratmayaq. Onu da qeyd edim ki, nazirlik və məhkəməyə müraciət məsələsi bu həftə həllini tapa bilər".



**R.Nurullayev bəzi siyasi düşərgələrin Kərimli qanadını AXCP kimi tanımalarına da toxundu:** "Bu, əleyhimizə işləyə bilməz, əksinə, xeyrimizədir. Bizə gələn mesajlar da bunu deməyə əsas verir. Müxalifətə yeni simalar, yeni ruh gətirmək istəyimiz Əli Kərimliyə görə deyil. Sadəcə, AXCP-çi olduğumuza görə bütün proseslər AXCP üzərində cərəyan edir. Daha çox da Əli Kərimlinin adı hallanır. Məqsədimiz köhnə uğursuz siyasətçilərin siyasi səhnədən getmələrinə nail olmaqdır. Bunun da yolu yeni qüvvənin, yanaşmanın ortaya çıxmasıdır. İnsanların yeni qüvvələrə inamlarının geri qaytarılması da əsas məqsədlərimizdən biridir. Bu proseslərin sonunda köhnə siyasətçilər tarixə gömüləcək. Təkcə Əli Kərimli yox. Möhtəşəm qurultaydan sonra bizi özlərinə rəqib görənlər çox narahat oldular. Onlar Azərbaycanda yeni qüvvələrin siyasi səhnəyə çıxmalarında maraqlı deyillər. Çünki bu onların sonu deməkdir. Bunun üçün də ənənəvi müxalifəti öz aralarında bir neçə il də cəmiyyətə sırımaq istəyirlər. Onlar Əli Kərimliyə dəstək verməklə özlərinin xilasolma yollarını göstərirlər. Siyasi səhnədə parlamağımız, hər gün artan uğurlarımız onları ciddi narahat edir. Biz onların sonunu gətirəcəyik. Təbii ki, heç kəsin sonunu istəmirik. Uğursuzluqlarına görə sədrlik postundan getməlidirlər. Bu bütün siyasi partiyalara aiddir. İndiyə qədər digər siyasi partiyalarda olan gənclərə səslənmişəm, yenə də səslənirəm. Öz partiyanızda üsyana qalxın, liderlərinizi devirin, yeni nəfəs, yanaşma, ideoloji xətt gətirin. Azərbaycanın xilası budur. Əbülfəz Elçibəy də bunu istəyirdi. Bizə rəqib olanlar, Əli Kərimlini dəstəkləyənlər siyasi səhnədən getməlidirlər".

**Yeni AXCP-nin sədri siyasi partiyalarda gənclərin liderlərə qarşı mübarizələrinin təzahürlərinin yarandığını da qeyd etdi:** "Qəlbimdə bu işə başlayanda tərəddüdlər var idi. Prosesin uğursuz olacağından, nəticə əldə edə bilməyəcəyimdən, cəbhəçilərin məni dəstəkləməyəcəyindən qorxurdum. Çox çətinliklər çəkirdim, gecələr yata bilmirdim. Sonunda qolumu çırmaladım, cəsarətlə danışdım, heç bir siyasi oyunda iştirak etmədim. Doğru bildiyim yolu dostlarımla getdim. On illərlə qəlblərdə yığılıb qalan ifadələri siyasi liderlərə qarşı işlətdim. Sonunda 1988-90-cı illərin abı-havasında olan qurultay keçirərək, insanların inamını geri qaytardıq. Avqust ayından bu günə qədər siyasətdə çaxnaşma yaratmağı bacardıq. Uğurumuz budur. Bundan ruhlanan minlərlə gənc var. Onlardan gələn mesajlar var. Biz digər siyasi partiyalarda rəhbərliyə qarşı mübarizə aparan gənclərin yanındayıq, onları dəstəkləyirik, sona qədər də bu belə olacaq. Onların bir neçəsi ilə də görüşüm olub. 2016-cı ildə Azərbaycan üçün dəyişiklik ili olacaq. Bu dəyişiklik ilk növbədə siyasi partiyalardan başlamalıdır. 2016-cı ildə siyasi partiyalardakı liderlər ölkələrdə saxladıqları kresloları itirəcəklər. Onları devirəcəyik, həmin insanları devirmək üçün gənclik olaraq ayağa qalxın, heç nədən qorxmayın, biz sizlərin yanındayıq".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 239 (6267) 28 oktyabr 2015



# Avropalı müşahidəçilər, "emdebe"li müşahidəçilər...

Xalid KAZIMLI

**İqtidar adamlarının açıqlamalarından belə anlaşılır ki, builki seçkilərə beynəlxalq ictimaiyyətin marağının sıfırın üzərində olmasını rəsmi Bakı özü istəyib və özü təşkil edib. Yoxsa hər il olduğu kimi, Avropanın müxtəlif üstqurum təşkilatlarının (ATƏT, AŞ və s.) təmsilçiləri kütləvi şəkildə tökülüşüb ölkəmizə gələcək, seçkiləri müşahidə edəcəklərmiş.**

Bu, o qədər də "dəhşətli" olmayan sirrin üstünü parlamentin indiki və gələcək sədri Oqtay Əsədov açıb.

Spiker ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (ATƏT/DTİHB) müşahidəçi göndərməkdən imtina etməsindən danışarkən deyib: "Bu təsisatdan bizə məktub göndərdilər ki, Azərbaycana 400 müşahidəçi yollamaq istəyirlər. Biz onlara yalnız bir sual verdik: niyə 400? Sizin metodologiyanız haradadır? Azərbaycanda 9 milyon əhali var, siz 400 müşahidəçi göndərirsiniz. Ukraynada 45 milyon insan yaşayır, oradakı seçkilərə də 400 müşahidəçi göndərirsiniz. Türkiyədə 80 milyon əhali var, ora 18 müşahidəçi göndərirlər. ATƏT/DTİHB metodologiyanı izah etmədi, bununla əlaqədar müşahidəçi göndərməmək haqqında qərar verdi və bəyan etdilər ki, Azərbaycan "müşahidəçiləri qəbul etməyə hazır deyil". Seçkiləri 27 beynəlxalq təşkilat izləyəcək, bu, kifayətdir".

İndi bununla bağlı spikerin özünə düz beş sual vermək olar.

Axı siz niyə ATƏT/DTİHB-ə o "bir sual"ı verirdiniz? Sizin də metodologiyanız budurmu ki, ölkədəki seçkiləri urvatlı etmək, onun dünyanın diqqətində olduğunu göstərmək istəyən beynəlxalq təşkilatlara mənfi reaksiya verəsiniz?

ATƏT/DTİHB ölkəmizə 400 müşahidəçi göndərmək niyyətində olduğunu bildirirkən, siz 4 min müşahidəçi tələb etsəniz, dünya dağılardı? Bu, ölkəyə gələn əcnəbilərin sayının artmasını təmin edər, sırf turizm prizmasından yanaşsaq, mənfəətli (otellər, restoranlar nə qədər pul qazanardı) olmazdımı? Üstəlik, "Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması" baxımından fayda gətirməzdimi?

Azərbaycanı Ukrayna və Türkiyə ilə müqayisə etmək nə dərəcədə doğrudur? O ölkələrdə keçirilən seçkilərlə Azərbaycanda keçirilən seçkilər fərqlidir. Birincisi, Ukraynada bələdiyyə seçkiləri keçirilir, ikincisi, Ukraynanın artıq demokratik seçki keçirmək təcrübəsi var, əyinti, pozuntuları minimal həddə olur. Ona görə də ora 1500 müşahidəçi göndərməyə ehtiyac yoxdur. Türkiyəyə gəlincə, artıq Avropa bu ölkədən əlini üzüb, oturub onun nə vaxt özünü teokratik xilafət elan olunacağını, prezident üsuli idarəsinə keçərək hazırkı prezidenti ömürlük elan edəcəyini gözləyir. ATƏT-in ora 18 müşahidəçi göndərməsi də sırf simvolik səciyyə daşıyır.

Əgər hər şey qanunlar çərçivəsində, dürüst, şəffaf olacaqsa, seçkilərdə hiyləgərlik və zorakılıq olmayacaqsa, müşahidəçinin sayının nə önəmi var?

Bəs MDB-dən gələn müşahidəçilərin sayında necə, hansısa məhdudiyyət tələb olundumu?

Əslində, məsələ belədir: 1995-ci ildən bəri ATƏT-dən gələn müşahidəçilər "ögey, yad", MDB-dən gələn müşahidəçilər "doğma, əziz" sayılır.

Bunun da əsas səbəbi odur ki, avropalı müşahidəçilər sonda rəhbərlərinin hansı bəyanatla çıxış etmələrinə baxmayaraq daima seçkiləri diqqətlə müşahidə edib, neqativ halları olduğu kimi qeydə alıb, obyektiv olmağa çalışıblar. Yalnız sonda onların rəhbərləri "nə şiş yansın, nə kabab" səciyyəli bəyanatlar verib, "seçkilərin Avropa standartlarına uyğun olmadığını" qeyd edərək, bununla belə, "irəliyə doğru bir addım olduğunu" bildiriblər.

MDB-dən gələn müşahidəçilər isə həmişə tamam fərqləniblər. Onların müşahidəçiliyi bir qayda olaraq, rəmzi, formal xarakter daşıyır, günləri şiş-kababla, ziyafətli keçir, axırda da "hər şey əlaydı, Azərbaycanda keçirilən seçkilərin demokratikliyinə görə dünyada analoqu yoxdur, biz bu təcrübəni öyrənməliyik" kimi riyakarlığın zirvəsi sayılacaq açıqlama ilə çıxış edirlər.

Hələ avropalı müşahidəçiləri də iki qrupa bölmək olar: qərbi avropalı müşahidəçilərlə şərqi avropalıların davranışı və bəyanatları da fərqlənir. Şərqi Avropa ölkələrindən (məsələn, Rumıniya, Bolqarıstan, Macarıstan, Serbiya, Sloveniya, Makedoniya və s.) gələn müşahidəçilər də təxminən MDB-li müşahidəçilər kimi bəyanatlar verirlər.

Ona görə də rəsmi Bakı onları və MDB-dən gələn müşahidəçiləri sevir, o birilərini isə sevmir.

"Azərbaycan müşahidəçiləri qəbul etməyə hazır deyil" ifadəsinin sirri də bundadır. İqtidar gerçəkdən də yaman söz deyəsi müşahidəçilər qəbul etməyə hazır deyil. Atalar əbəs deməyib, "yüz yeyənin olsun, bir deyənin olmasın".

# Mehman Əliyev ona edilən vəzifə təkliflərindən danışdı

## "Mənə vəzifə təklif edən şəxs indi həyatda yoxdur"

**"Mənə Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Analitik İdarəsinin rəisi vəzifəsi təklif olunub. Bu, general vəzifəsidir. Ancaq mən bu vəzifədən imtina etdim. Əgər mən bu vəzifədən imtina etmişəmsə, gedib hər hansı bir kəsə işləyəcəyəm?" Bu açıqlamanı "Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev 2014-cü ildə səsləndirib.**

Həmin vaxt virtualaz.org saytında Eynulla Fətullayevin müəllifi olduğu "Tam məxfi: ABŞ kəşfiyyatçıları və Xədicə İsmayılovanın casus hesabatı" adlı məqalədə ölkənin bir sıra tanınmış müxalifət yönümlü media və ictimai xadimlərinin casusluq fəaliyyəti ilə bağlı iddialar yer alıb.

**Sözügedən yazıda "Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev haqda isə bunlar qeyd olunmuşdu:** "Babək Muradov adlı sahibkarın vasitəsilə MTN-lə əməkdaşlıq edir. Babək Muradov MTN rəhbərliyinə yaxın şəxsdir. M.Əliyev maskalanmış radikal müxalifətçi rolunda B.Muradova informasiyaları sızdırır".

MTN ətrafında bu qədər proseslərin baş verdiyi günlərdə "Yeni Müsavat" M.Əliyevdən sözügedən təklif, onun detalları ilə bağlı soruşdu.

**- Mehman bəy, 2014-cü ildəki açıqlamalarınızdan birində sizə MTN-də analitik idarənin rəisi vəzifəsi təklif olunduğunu demişdiz. Bu vəzifəni sizə kim təklif etmişdi?**



- Heydər Əliyev.

**- Neçənci ildən gedir söhbət?**

-1995-ci ildən. Belə vəzifələri kim təklif edə bilər? Bu vəzifələr kimin kurasiyasındadır? Məsələn, Xarici İşlər Nazirliyində informasiya idarəsinin rəisi vəzifəsi də təklif olunmuşdu. Onu kim edə bilər? Mətbuat və informasiya naziri vəzifəsi də təklif olunmuşdu. Bəs onu kim edə bilər? AzərTAc-ın direktorunu, mətbuat katibini kim təklif edə bilərdi? Təbii ki, Heydər Əliyev. Bunlar hamısı onun hakimiyyəti dönəmində təklif olunub.

## ".. Təklifi rədd elədim, dedim, vaxtı çatanda mənə deyərsiz, gələrəm..."

**- Xatırlayırsız o görüşlərin hər birini? Məsələn, sizə MTN-də vəzifə təklif olunan görüşü?**

- Məni həmişə çağırıblar, mənimlə həmişə danışıblar, nələrsə təklif ediblər. Cürbəcür olub.

**- Bəs sizin rədd cavabı verməniziın səbəbi nə idi?**

- Mənə təklif olundu ki, Heydər Əliyevin tapşırığı ilə prezidentin mətbuat xidmətinin rəhbəri təyin olunum. Mən də Prezident Aparatının (indi Prezident Administrasiyası-red.) yüksək vəzifəli nümayəndəsi ilə danışanda dedim ki, siz burdan 67 nəfər adamı işdən çıxarmısız, onların arasında kifayət qədər ölkəsinə, xalqına xidmət edən savadlı, vətənpərvər insanlar var. Mən hesab edirəm ki, o insanların çoxu qaytarılmalıdır. Mən dedim ki, əgər siz milli birlik siyasətini həyata keçirməyə başlasanız, siyasi mövqeyindən asılı olmayaraq, ölkəsinə xidmət edən insanları bir araya yığsanız, bu məsələdə iştirak edəcəm. Yox, əgər bunu qəbul etmirsizsə, mən də sizin təklifinizi qəbul etmirəm və bu prosesdə iştirak etməyəcəm. Mənə dedilər ki, biz də bunu istəyirik, amma vaxtı deyil. Mən də dedim ki, vaxtı çatanda mənə deyərsiz, gələrəm. Çox sağ olun dedim və çıxdım.

**- Axırı necə oldu bu söhbətin? Sizə yenə təklif olundu?**

- Məni təkrarən, yenə dəvət elədilər. Mənimlə bağlı məsələ həmişə gündəmdə olub.

**- Bəs Heydər Əliyevin ölümündən sonra? O mərhələdən sonra sizə heç bir təklif gəlmədimi?**

- Ondan sonra olanlar barədə danışmıram mən. Heydər Əliyev rəhmətə getdiyi üçün danışıram. Amma ondan sonra nə olmuşdu, mən danışmıram.

❑ Sevinc TELMANQIZI

# "Xarici KİV-lər seçkini izləməyə buraxılmır" iddiasına rəsmi cavab gəldi

## XİN rəsmisi xəbərin doğru olmadığını deyir

**Bir sıra məşhur beynəlxalq KİV Azərbaycanda 1 noyabr parlament seçkiləri ərəfəsində işləmək üçün akkreditasiya verilməsindən imtina cavabı alıb. Məlumatlı mənbələrdən "Turan"a daxil olan məlumata görə, imtina cavabı alanlar arasında dünyanın aparıcı KİV və agentlikləri var.**

"Azərbaycan XİN bu məsələ ilə bağlı aydın izahat vermir", deyə məlumatlı mənbə bildirib. Həm də bəzilərinə əvvəlcədən rəsmi şəxslərlə sırf iqtisadi mövzularda müsahibələr razılaşdırılmasına baxmayaraq imtina edilib" deyə, məlumatda bildirilir.

**Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Şahin Əsədli** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, xarici KİV-in akkreditasiyasını MSK yox, Xarici İşlər Nazirliyi həyata keçirir: "Bizdə hansısa xarici KİV təmsilçisinin akkreditasiya olunmadığı barədə dəqiq informasiya yoxdur. Yayılan məlumatda da konkret ad çəkilmir".

**Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** isə bildirib ki, "Kütləvi informasiya vasitələri haqqında" Qanunda yer alan "Azərbaycan Respublikasında xarici



kütləvi informasiya vasitələri nümayəndələrinin akkreditasiyası qaydaları" əsasında xarici KİV nümayəndələrinin akkreditasiyası Xarici İşlər Nazirliyi tərəfindən həyata keçirilir. XİN-də akkreditasiyadan keçən KİV nümayəndələri Mərkəzi Seçki Komissiyasında qeydə alınmalıdırlar. Yalnız bundan sonra xarici KİV təmsilçiləri tamamilə sərbəst şəkildə seçki prosesini işıqlandıra bilərlər.

**H.Hacıyev dedi ki, indiyə qədər hansısa xarici KİV-ə akkreditasiya məsələsində problem yaradılmayıb:** "Xarici KİV nümayəndələrinin akkreditasiya prosesini asanlaşdırmaq üçün XİN tərəfindən elektron akkreditasiya xidməti də həyata keçirilir. Azərbaycanda keçiriləcək parlament seçkilərini işıqlandırmaq üçün bu günə qədər XİN-ə beynəlxalq media qurumlarından çoxsaylı müraciətlər daxil olub. Bu, beynəlxalq media nümayəndələrinin ölkəmizdə keçiriləcək seçkilərə marağını göstərir. Azərbaycanda artıq daimi əsasda akkreditasiyadan keçmiş xarici media nümayəndələri var ki, onlar Mərkəzi Seçki Komissiyasında qeydiyyata düşməklə seçkiləri işıqlandırmaq niyyətindədirlər. Bundan əlavə, qısamüddətli dövr ərzində akkreditasiyadan keçmək və seçkiləri işıqlandırmaq üçün müraciətlər də daxil olur. Ümumiyyətlə, seçki prosesini işıqlandırmaq üçün müraciət edən xarici KİV nümayəndələri sırasında Türkiyə, Rusiya, Avropa İttifaqı ölkələrinin media qurumları üstünlük təşkil edirlər. Bundan əlavə, ABŞ və İsraildən də müraciətlər var".

Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar səsvermə proseduru da artıq açıqlanıb. Noyabrın 1-də saat 7:30-da seçki məntəqələrində səsverməyə hazırlıq işlərinə başlanacaq. Saat 7:50-də məntəqə seçki komissiyalarının sədrləri tərəfindən seçki məntəqələri açıq elan ediləcək və seçki qutuları kilidlənəcək. Məntəqə seçki komissiyalarının sədrləri saat 8:00-da səsvermənin başlanmasını, saat 19:00-da isə səs vermək üçün seçicilərin seçki məntəqəsinə daxil olmasının başa çatdığını elan edəcək. Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzi tərəfindən səsvermənin gedişi və onun nəticələri barədə saat 10.00, saat 12.00, saat 15.00, saat 17.00 və saat 19.00-da ilkin məlumatlar veriləcək. Səsvermənin gedişi və onun nəticələri barədə alınan məlumatlar hüquqi əhəmiyyət daşımayan ilkin məlumatlar hesab edilir.

Seçkiləri izləyəcək beynəlxalq müşahidəçilərin sayı isə 500-ə yaxınlaşır. Seçkiləri izləyəcək yerli müşahidəçilərin sayının 60 min nəfər olduğu MSK-dan bildirilib. Seçkiləri müşahidə edəcək beynəlxalq təşkilatların sayının isə 27 olduğu bildirilib.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 239 (6267) 28 oktyabr 2015

## Eldar Mahmudovun ən yaxın adamları qandallandı



# Məzahir Pənahovu da dinləyiblər - yeni sensasion həbslərin sirri

Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin rəhbəri Beytulla Hüseynov və Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Aparat rəhbəri Vidadi Zeynalov həbs olundu; Mərkəzi Seçki Komissiyası sədrinin telefonları MTN-dəki qrup üçün niyə maraqlı olsun?; dövlət rəsmilərinin dinlənməsi ilə bağlı istintaq birbaşa Xüsusi Dövlət Mühafizə Xidmətinin nəzarəti altındadır, ifadələrin alınmasında son dərəcə məxfilik qorunur...

**Eldar Mahmudovun nazir vəzifəsindən çıxarıldıqdan sonra Milli Təhlükəsizlik Nazirliyində (MTN) baş verən sensasion həbslərin sahibkarlardan yalnız qanunsuz pul tələb edilməsi ilə deyil, əsasən gizli dinləmələrlə bağlı olduğu bir daha təsdiqlənib. Belə ki, gizli dinləmələrlə bağlı MTN-in az qala "qulağı" kimi işləyən Rabitə və Yüksək Texnologiyalar Nazirliyində də şok həbslər başlayıb.**

**Bir neçə gün əvvəl vəzifəsindən azad olunan Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin (BTRİB) rəhbəri Beytulla Hüseynovun həbs olunduğu rəsmən təsdiqlənib.**

APA-nın məlumatına görə, Yasamal Rayon Məhkəməsinin qərarı ilə B.Hüseynovun barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. B.Hüseynov barəsində Cinayət Məcəlləsinin 179.3.2 (Mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə), 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə, bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 313 (Səhlənkarlıq, yəni vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə və ya dövlətin və ya cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasına səbəb olduqda) maddələri ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən cinayət işi açılıb.

### Aparat rəhbəri nazirin yanında həbs edilib

Amma həbslər bununla yekunlaşmayıb. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Aparat rəhbəri Vidadi Zeynalov da oktyabrın 26-da axşam həbs olunub. Verilən məlumata görə, V.Zeynalovun həbsi Beytulla Hüseynovla əlaqəlidir. Vidadi Zeynalov nazirlikdən öncə, 2000-2004-cü illərdə İqtisad Universitetinin inzibati-təsərrüfat işləri üzrə prorektor vəzifəsində çalışıb. Daha sonra iş yerini və Yüksək Texnologiyalar Nazirliyinə dəyişib (modern.az).

Qeyd edək ki, B.Hüseynov rabitə və yüksək texnologiyalar naziri Əli Abbasovun əmri ilə işdən kənarlaşdırılıb. B.Hüseynov sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun qohumudur. B.Hüseynovun qardaşı, Xətai Rayon İcra Hakimiyyəti başçısının müavini işləmiş Xeyrulla Hüseynovun vəzifəsindən azad edilməsi ilə bağlı yayılan məlumatlar da təsdiqlənib.

İcra hakimiyyətindən "Trend"ə yalnız onu bildiriblər ki, X.Hüseynovun işinə oktyabrın 26-da xitam verilib.

Nazirlikdəki həbslə bağlı "Yeni Müsavat"a daxil olan xəbərlərdə deyilir ki, oktyabrın 26-da axşam Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları Rabitə və Yüksək Texnologiyalar Nazirliyində xüsusi əməliyyat keçirib. Nazir Əli Abbasov əməliyyat zamanı nazirliyə çağırılıb. Elə oradan da nazirliyin aparat rəhbəri Vidadi Zeynalov həbs olunaraq aparılıb.

Xəbərdə o da deyilir ki, V.Zeynalovun Vahid adlı qardaşı MTN-də şöbə rəisidir. Həbs edilən aparat rəhbəri isə Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərovla yeznə-qayındır.

### MTN-in "qara qutusu" nə ifadə verib?

İstintaqdan məlumatlı şəxsin verdiyi məlumata görə, MTN-dəki və Rabitə və Yüksək Texnologiyalar Nazirliyində həbslər birbaşa məhz dövlət vəzifəlilərinin qanunsuz dinlənilməsi ilə bağlıdır. Bilgili mənbəmiz iddia edib ki, indi "MTN işi" üzrə iki istintaq aparılır. Sahibkarlardan qanunsuz xərac alınması və onların incidilməsi ilə bağlı istintaq Respublika Prokurorluğunun nəzarətindədir. Qanunsuz dinləmələrlə bağlı istintaq isə birbaşa Xüsusi Dövlət Mühafizə Xidmətinin nəzarəti altındadır və oraya prokurorluğun müstəntiqləri belə müdaxilə etmək səlahiyyətində deyil. Bu iş tam olaraq Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin birinci müavini Bəylər Əyyubovun icraatındadır və ifadələrin alınmasında son dərəcə məxfilik qorunur.

Əsas istintaq hərəkətlərinin isə MTN-in Monitorinq Mərkəzinin rəisi general-mayor Teymur Quliyevin ətrafında aparıldığı dəqiqdir. 45 yaşlı general T.Quliyev həbs edilənlər arasında sabiq nazirə ən yaxın kadr sayılır. O, DİN-in İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə İdarəsində E.Mahmudovun rəhbərliyi altında işləyib. E.Mahmudovun vəzifəyə təyinatından sonra o da MTN-ə gətirilib. Onun MTN-in "qara qutusu" hesab edilən Monitorinq Mərkəzinin rəisi vəzifəsinə təyinatı E.Mahmudovun ona hədsiz güvəndiyini təsdiqləyir. Ehtimal edilir ki, sabiq nazirin bundan sonrakı taleyini də daha çox T.Quliyevin verdiyi ifadələr müəyyənləşdirəcək.

### Həbs edilənlər təkadamlıq kameralarda saxlanılır

Məlumat var ki, həbs edilənlərin hamısı ilk gündəm təkadamlıq kameralara yerləşdirilib, onlara vəkilin ancaq dövlət tərəfindən ayrılmasına izin verilib. Bu addım isə istintaq sirrinin qorunması üçün atılıb. Həbs edilənlər barəsində Cinayət Məcəlləsinin 308.2, 309.1 və 302.2-ci maddələri ilə ittiham verilib. Elan olunmuş ittihamlarda diqqətçəkən maddələrdən biri 308.2-dir. Bu maddə əsasən, seçki və referenduma qanunsuz müdaxilə cəhdləri üçün nəzərdə tutulub. Bu maddə vəzifə səlahiyyətlərinin aşılmasının ən ağırlaşdırıcı halı üçün nəzərdə tutulub və seçkilərə qanunsuz müdaxilə ilə bağlı cəzanın təyinini özündə ehtiva edir.

Qaynağımızın "seçkiyə aid olan hansısa proses və ya namizədlərdən kiminsə danışıqlarının dinlənilməsi olub ki, bu ittiham verilib" deyərək, istintaq barədə ən sensasion məlumatını açıqlayıb. **"Artıq tam dəqiqləşib ki, MTN-dəki qrup Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovu da dinləyib. MSK sədrinin telefon danışıqları uzun müddət nəzarətdə olub"** deyə, mənbə bildirib. Qaynağımız M.Pənahovun dinlənilməsinin hansısa deputatlığa namizədin şantaj olunması və ya hansısa namizəddən pul qoparmaq niyyəti güddüyünü inandırıcı hesab etmir. MSK sədrinin 2013-cü il prezident seçkilərində də dinlənilməsi şübhələri var.

Seçkilərlə bağlı toplanmış gizli danışıqların MTN üçün niyə bu qədər əhəmiyyətli olduğu barədə isə ancaq ehtimal irəli sürmək olar. Məsələn, bu telefon danışıqlarının hansısa Qərb ölkələrinin birinin telekanalı üzərindən yayılması və ya müxalifətə ötürülməsi hakimiyyətə çox ciddi zərbə ola bilərdi. MTN-də əməliyyatın və həbslərin ilk olaraq Monitorinq Mərkəzindən başlaması da təsadüf deyil. Monitorinq Mərkəzinin dərhal möhürlənməsi oradan hansısa materialların çıxarılması və ya məhv edilməsini əngəlləmək üçün edilib. MTN-dən nələr çıxarılıb, nələrin harada saxlanıldığını isə istintaq müəyyən etməlidir.

### Rəsul Quliyev bilgilərini açıqladı

Azərbaycandan uzaqda yaşasa da, hakimiyyətdəki kompromatların toplanması və telefonların gizli dinlənilməsindən məlumatlı olduğu şübhə doğurmayan eks-spiker Rəsul Quliyev MTN-dəki həbslərin birbaşa gizli dinləmələrlə bağlı olduğunu deyib. Eks-spikerin dediklərindən: **"Telefonlara qulaq asmaq həmişə çox gözlənilməz effekt verir. Kiminsə telefonuna qulaq asırsan və birdən elə adamın adı ortaya çıxır ki, həm qulaq asan, həm də qulaq asmağa komanda verən şoka düşür. Telefonlara qulaq asanlar həmişə belə gözlənilməz hadisələrlə rastlaşır. Aydındır ki, telefona qulaq asanlar hətta Mahmudovun icazəsi olmadan təsadüfən qulaq asma orbitasına düşmüş varlıları şantaj etməklə pul yığıblar. Və çox ehtimal bu işlə artıq azı 5-6 ildir məşğul olurlar. Bu yolla "qazanılmış" puldan azğınlaşıblar. Düşünürəm ki, Mahmudov prezidentin yanında olanda, onun adamları başda çox inandığı mühafizəçi olmaqla, vətəndaşlara qulaq asma departamentini, nazirin və bəzi generalların kabinetlərini möhürləyiblər və orada axtarışa başlayıblar. Arxivdən də sənədlər çıxarılıb və bir neçə gün ərzində işıq üzü görməməli sənədlər kompromat xarakterli materiallar götürülüb, bəlkə də artıq yandırılıb".**

Göründüyü kimi, eks-spikerin dedikləri ilə mənbənin söylədikləri və yeni həbslər arasında bağlantılar var.

**❑ "Yeni Müsavat"**

## NİDA seçkilərdən çəkildi - Müsavat bu gün nə qərar verəcək?

**Bu gün Müsavat Partiyası noyabrın 1-də keçiriləcək parlament seçkiləri ilə bağlı tarixi qərar verə bilər. Qurumun 25 oktyabr tarixli mitinqində seçkilərdə iştirakla bağlı məhz bu gün qəti qərar veriləcəyi bildirilmişdi. Boykot qərarı ehtimalları daha real görünür.**

Təsadüfi deyil ki, bu gün saat 13:00-da Müsavat Divanının fövqəladə toplantısı çağırılıb. İclasdan dərhal sonra saat 14:00-da partiyanın qərargahında mətbuat konfransı keçiriləcək. Divanın qərarı ictimaiyyətə elan olunacaq.

Günlər öncədən Müsavat başqanının həbsdəki müavinləri Tofiq Yaqublu və Fərəc Kərimli indiki seçki mühitində boykot qərarı olarsa dəstəkləyəcəklərini bildirmişdilər. Bu barədə musavat.com-a bazar günü həbsxanada atası Tofiq Yaqublu ilə görüşən Nigar Yaqublu məlumat vermişdi. Müsavatın vicdan məhbuslarının çağırışına necə cavab verəcəyi bu gün məlum olacaq.

Müsavatla seçkilərlə bağlı əməkdaşlıq edən qurumlardan NİDA Vətəndaş Hərəkatı 27 oktyabrda seçkilərdə iştirakdan imtina edib. Qurumun toplantısında bu barədə qərar qəbul edilib. NİDA boykot qərarını qəbul etdiyi bəyanatda belə əsaslandırıb: "NİDA Vətəndaş Hərəkatı seçki prosesi başlayan müddətdən açıq şəkildə bəyan etmişdi ki, biz seçkilərin azad və ədalətli keçiriləcəyinə inanmırıq, keçmiş təcrübə və hakimiyyətin davranışı onu deməyə əsas verir ki, seçkilər növbəti dəfə saxtalaşdırılacaq və rejim özünə xidmət edən "parlament" formalaşdıracaq. 8 nəfərlə seçkiyə qatılan NİDA-nın yalnız 2 namizədi - 18-ci dairədən Ramin Hüseynov, 35-ci dairədən İlahə Əmiraslanova qeydə alındılar. Digər 6 namizədimiz müxtəlif bəhanələr gətirilərək qeydə alınmadılar, bəzi hallarda onlara imza verən vətəndaşlara təzyiq göstərildi, namizədlərin seçkidə iştirak hüququ açıq-aşkar pozulmuşdu. Hakimiyyət seçki prosesinə marağı daha da azaltmaq üçün namizədlərə pulsuz efir vaxtı ayırmadı. NİDA Vətəndaş Hərəkatı hakimiyyətin total saxtakarlığa hazırlaşdığına bir daha əmin olduqdan və seçkilərlə bağlı əsas hədəfi olan xalqla teması gücləndirmək missiyasını yerinə yetirdikdən sonra bəyan edir ki, hərəkatımızın namizədləri Ramin Hüseynov və İlahə Əmiraslanova namizədliklərini geri çəkirlər. Yuxarıda qeyd etdiyimiz səbəblərdən və ölkədəki mövcud ictimai-siyasi vəziyyəti, repressiv mühiti əsas gətirərək hərəkat olaraq parlament seçkilərində iştirakdan imtina edirik və nəticələri indidən bəlli olan seçkiləri tanımayacağıq".

REAL hərəkatı seçkilərlə bağlı oktyabrın 27-də bəyanat verib və bu qurum da çox güman ki, boykot qərarı verəcək.

❑ **Cavanşir ABBASLI**

## Ombudsmanın nümayəndələri İlqar Məmmədovla görüşdü



**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanovanın tapşırığına əsasən Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 2 saylı cəzaçəkmə müəssisəsinə (CÇM) əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçiriblər. Virtualaz.org Ombudsman Aparatının mətbuat xidmətinə istinadən bildirir ki, MPQ-nin həkim üzvü də başçəkmədə iştirak edib.**

MPQ üzvləri tərəfindən həmin müəssisədə 60-dan çox məhkum fərdi qaydada dinlənilib, habelə bir sıra şəxslər öz xahişləri ilə təkbətək qəbul edilib, söhbətlər aparılıb. Görüş, telefon danışığı, tibbi yardımla bağlı müraciətlər yerində araşdırılıb. Məhkumlar saxlanılma şəraitindən və rəftardan şikayət etməyiblər. Yalnız həmin müəssisədə cəza çəkən İlqar Məmmədov ona qarşı kobud rəftara yol verildiyini bildirib. O, təkbətək qəbul edilib. MPQ-nin həkim üzvünün iştirakı ilə bədəninə baxış keçirilib, hər hansı xəsarət izi aşkar olunmayıb. Müraciəti üzrə qaldırdığı məsələlər yerində araşdırılıb, İ. Məmmədov əvvəlki müraciətlərinin də araşdırılması istiqamətində göstərdiyi diqqətə görə ombudsmana təşəkkürünü bildirib.

İ. Məmmədovun vəkillərinin də müraciətləri nəzərə alınmaqla Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə müvafiq tədbirlərin görülməsi ilə bağlı müraciət edilib.

# Hacı Məmmədov Qobustan türməsinə köçürüləcək

### "Qara kəmər" əməliyyatının baş "qəhrəmanı" illərdir ki, qanunsuz olaraq MTN-də saxlanılırdı, həm də necə...

**23 iyul 2004-cü ildə Eldar Mahmudov milli təhlükəsizlik naziri təyin olunandan 8 ay sonra səs-küylü əməliyyat baş tutdu. MTN 2005-ci il martın 10-da "Qara kəmər" əməliyyatı keçirdi, başında Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinin baş əməliyyat müvəkkili Hacı Məmmədovun durduğu adam oğurlayan banda ifşa olundu.**



Bandanın məhkəməsi 2006-cı ildə başlayıb 2007-ci ilə qədər davam etdi, Hacı Məmmədov da daxil olmaqla, 10 nəfər ömürlük, 15 nəfər isə ən müxtəlif müddətlərə azadlıqdan məhrum edildilər. İş üzrə ömürlük həbsə məhkum edilmiş 9 nəfər Qobustan həbsxanasına göndərildi. Hacı Məmmədovu isə ibtidai istintaq dövründən Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Təcridxanasında saxlanıldı. Bu gün də oradadır. Onu MTN-in İstintaq Təcridxanasında digər kameralardan şəraitinə görə fərqlənən 44 saylı kamerada saxlayırlar. Həmin kamera digərlərindən genişliyinə görə fərqlənir. Təcridxanadakı kameraların ölçüsü standartdır - 2 metr 80 santimetr uzunu və eyni ölçüdə enidir. Kameraların tavanına bitişik balaca pəncərələr var. Həmin pəncərələrdən yalnız səmanı görmək olur. Hacı Məmmədovun saxlanıldığı kameranın ölçüləri daha böyükdür. "Şəhidlər Xiyabanı" tərəfə açılan pəncərəsindən Bakını seyr etmək olur. Banda başçısına illərdir fərqli münasibət var...

Ömürlük məhkumun MTN-də saxlanılması qurumun tarixində ilk haldır. Hacı Məmmədova qədər ora ömürlük həbsə məhkum edilmiş şəxsləri göndərmir, orada saxlamırdılar. Hacı Məmmədovun MTN-də qanunsuz saxlanıldığı zaman-zaman ictimailəşsə də, heç bir nəticəsi olmayıb. İş üzrə təqsirləndirilən Zakir Nəsirovun vəkili Adil İsmayılov H.Məmmədovun MTN-də saxlanılmasının qanunsuz olduğunu mətbuata dəfələrlə deyib. Vəkil 2011-ci ildə "Yeni Müsavat"a verdiyi açıqlamada demişdi ki, Hacı Məmmədovu orada qanunsuz saxlayırlar.

**MTN təcridxanasına baş çəkmək hüququ tanınan yeganə hüquq müdafiəçisi, İşgəncələr Əleyhinə Azərbaycan Komitəsinin sədri Elçin Behbudov isə açıqlamalarında Hacı Məmmədovun orada qalmaq istədiyini bildirib. Onun "Yeni Müsavat"a verdiyi açıqlamalardan birindən sitat:** "Hacı özü mənə demişdi ki, Qobustana köçürülmək istəmir. Dedi, ora köçürsələr, həyatıma təhlükə olacaq, mənim üçün elə ən təhlükəsiz yer MTN-dir".

Məsələnin bu tərəfi də var ki, məhkumun saxlanma yerini seçmək hüququ Azərbaycan qanunları ilə tanınmır. Buna görə də onun MTN-də saxlanılması qanunsuzdur. Belədə ortaya sual çıxır - Hacı Məmmədova xüsusi münasibət haradan qaynaqlanır? Eldar Mahmudov nazir olaraq belə bir qanunsuzluğa niyə qol qoyub? Marağı nə olub? Məgər o, Hacı Məmmədovun millətin, dövlətin təhlükəsizliyinə cavabdeh olan bir qurumda saxlanılmasının Azərbaycan qanunlarına zidd olduğunu bilməyib?

Aydındır ki, nazir bunları bilməmiş deyildi. Sadəcə, Hacı Məmmədovu himayə etməklə onu məhkəməsində şəxsi maraqlara uyğun ifadə verməsinə yol açmışdılar. Hacı Məmmədov isə məhkəməsində sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevə şər atmaqdan, DİN-in Baş Cinayət Axtarış İdarəsinin rəisi, general Zakir Nəsirovun üzünə dayanmaqdan çəkinməmişdi. Onun yalana söykənən ifadələri əsasında Z.Nəsirov bu gün də ömürlük həbsdədir.

Hacı Məmmədov "Qara kəmər"ə qədər sifarişlə adam öldürürdüsə, əməliyyatdan sonra sifarişlə üzə dayanana çevrilmişdi. O, törətdiyi əməllərə görə ömürlük cəza alacağını tutulduğu andan bilirdi. Bilirdi ki, bu əməlləri ilə özünə Qobustan həbsxanasında ömürlük kamera qazanıb. Orada isə yanına sifarişlə öldürdüyü şəxsin qohumu, oğurlayıb pulunu aldığı biznesmenin tanışı düşüb onu çətin duruma sala, suallar verə bilərdi. Bunlardan özünü sığortalamaq üçün yalan ifadələrə qol çəkdi.

O zaman heç kimin ağlına belə gəlməzdi ki, Hacı Məmmədova qarşı keçirilən əməliyyatın biri də onun himayə etmiş şəxslərə qarşı keçiriləbilər. Və Hacı Məmmədov açıqda qalar. Bu gün H.Məmmədovun qanunsuz olaraq saxlanıldığı MTN-dən Qobustana köçürülməsi qanuni qərara bağlı məsələdir. Bu isə milli təhlükəsizlik naziri təyin ediləcək şəxsin Azərbaycan qanunlarına sayğısının göstəricilərindən biri olacaq.

❑ **E.MƏMMƏDƏLİYEV**




## Elşad Abdullayevin qardaşı vəzifədən qovuldu

**Baş Prokurorluğun İstintaqa Nəzarət İdarəsinin prokuroru Elsevər Abdullayev oktyabrın 27-də baş prokuror Zakir Qaralovun əmri ilə vəzifədən azad edilib və prokurorluq orqanlarından xaric olunub. Bu barədə virtualaz.org saytına hüquq-mühafizə orqanlarına yaxın mənbələrdən məlumat daxil olub.**

Baş Prokurorluğun İctimaiyyətlə əlaqələr şöbəsi virtualaz.org saytının prokuror Elsevər Abdullayevin vəzifəsindən azad olunmasına dair informasiya ilə bağlı sorğusuna cavab olaraq faktı təsdiqləyib.

Qeyd edək ki, Elsevər Abdullayev Azərbaycan Beynəlxalq Universitetinin sabiq rektoru, 2011-ci ildə Fransaya qaçan və hazırda da orada yaşayan Elşad Abdullayevin qardaşıdır.

Elşad Abdullayev mətbuatda Azərbaycanın bir sıra yüksək rütbəli dövlət məmurlarına qarşı geniş kampaniya aparıb. Elşad Abdullayevin bu hay-küylü bəyanatlarını şərh edən əksər ekspertlər belə güman edirdilər ki, sabiq rektorun fəallaşaraq bir çox yüksək rütbəli məmurlara hücuma keçməsinin arxasında MTN rəhbərliyi dayana bilərdi.

Daha sonra Elşad Abdullayevə qarşı Azərbaycan Cinayət Məcəlləsinin 137.3 (insan orqanlarının alınıb-satılması) və 308.2-ci (vəzifə səlahiyyətlərini aşma) maddələri ilə cinayət işi açılıb. Buna görə də E.Abdullayev Fransaya sığınaraq orada gizlənməyə məcbur olub. Nəsimi Rayon Məhkəməsi onun barəsində həbs-qətimkan tədbiri seçib. Elşad Abdullayev beynəlxalq axtarışa verilib.

# Bu gün ABŞ Senatında Azərbaycanla bağlı dinləmə keçiriləcək

## Seçkiyə 4 gün qalmış təşkil edilən tədbirə iqtidara ən sərt mövqeyi ilə seçilən adamlar cəlb olunub



**Oktyabrın 28-də ABŞ Senatında Azərbaycanda insan hüquqlarının pozulması məsələsi ilə bağlı dinləmələr keçiriləcək. Bu barədə "Turan"ın Vaşinqton müxbiri məlumat verib. "Azərbaycanda seçkilər ərəfəsində insan hüquqları" adlanan dinləmələrə senatorlar Mark Kirk və Kris Kuns, həmçinin bir sıra beynəlxalq hüquq-müdafiə təşkilatları təşəbbüs göstəriblər.**

Təşəbbüskarlar bildirib ki, bu təşəbbüs 1 noyabr parlament seçkiləri fonunda Azərbaycanda insan hüquqlarının pozulmasının və vətəndaş cəmiyyətinin sıxışdırılmasının davam etməsindən irəli gəlib: "Bir ildə Azərbaycan cəmiyyəti görünməmiş təzyiqlərə məruz qalıb, onlarla jurnalist və vətəndaş cəmiyyəti fəalı, siyasətçi, din xadimi həbs edilib. Onların bir çoxu, Leyla və Arif Yunuslar səhhətləri ağır olsa da, işgəncələrə, iztirablara məruz qalıblar. Həmçinin bir sıra Amerika QHT-ləri, AzadlıqRadiosunun nümayəndəliyi təqib və təzyiqlərə məruz qalıb, radionun əməkdaşı Xədicə İsmayılova həbs olunub. Qarşıdakı müzakirələr Azərbaycanda hazırkı siyasi atmosferin qiymətləndirilməsinə və aşağıdakı sualların cavablandırılmasına yönəlib. Gələcək demokratiya baxımından 1 noyabr parlament seçkiləri hansı əhəmiyyəti daşıyır? Hansı insan haqları pozuntuları baş verib? Azərbaycanın demokratik dəyərlərdən uzaqlaşması onun ABŞ ilə tərəfdaşlığına necə təsir göstərir? Azərbaycanda insan hüquqlarını necə qorumaq və ölkələr arasında ləyaqətli tərəfdaşlığı necə saxlamaq olar?"

Tədbirə dəvətlilər arasında Leyla və Arif Yunusların qızı Dinara Yunus, ABŞ-ın Bakıdakı keçmiş səfiri Riçard Kozlariç, Milli Demokratiya Fondunun nümayəndəsi Miriam Lanskoy, "Freedom House"nin nümayəndəsi Tamara Grigoryeva da var. Tədbirin moderatoru ABŞ dövlət katibinin keçmiş müavini Devid Kramer olacaq.

Məruzəçilər qismində dəvət olunan amerikalı ekspertlərin siyahısına diqqət etdikdə onların Azərbaycan iqtidarına qarşı sərt mövqedə olan şəxslər olduğu görünür. Tədbirin moderatorunu isə xüsusi təqdim etməyə ehtiyac yoxdur. Devid Kramer Azərbaycan hakimiyyəti ilə düşmən münasibətində olan, azərbaycanlı məmurlara qarşı sərt sanksiyalar tətbiq edilməsi tələbləri ilə çıxış edən şəxsdir. Belə qənaətə gəlmək mümkündür ki, ABŞ-da hansısa qüvvələr seçkiyə 4 gün qalmış Azərbaycanla bağlı xüsusi dinləmə təşkil etməklə kifayətlənməyərək həmin dinləmələrə Azərbaycan hakimiyyətinə son dərəcə mənfi münasibəti ilə tanınan isimləri cəlb edir.

ABŞ-dan belə bir münasibətin fonunda isə Rusiyadan Azərbaycan hakimiyyətinə dəstək mesajları, Azərbaycanı Qərbdən müdafiə bəyanatları gəlməkdədir.

**Azərbaycanda parlament seçkilərini müşahidə edəcək MDB Parlamentlərarası missiyasının rəhbəri, Rusiya Dövlət Dumasının Liberal Demokrat Partiyası fraksiyasından olan deputatı, MDB işləri, Avrasiya inteqrasiyası və soydaşlarla əlaqələr üzrə Komitəsinin sədri Leonid Slutski Azərbaycanın Rusiyadakı səfirliyində mətbuat konfransı keçirib. O bildirib ki, Qərbin, xüsusilə ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Azərbaycana qarşı mövqeyi qərəzlidir:** "Azərbaycan inkişafda olan bir dövlətdir və bu dövlətin inkişafına təkan vermək əvəzinə ona mane olmağa çalışırlar. Azərbaycanın obrazını Avropada təhrif edirlər. Çünki Avropanın Demokratik İnstitutlar və İnsan Haqları Bürosu ancaq neqativ axtarışındadır. Əslində bu mövqe ilə öz əksinə işləyir, sifariş yerinə yetirir".

**Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı təşkil olunan Bakı-Moskva videoköрpü zamanı isə Postsovet məkanı Araşdırmalar Mərkəzinin direktoru Stanislav Çernyavski deyib ki, Rusiya Azərbaycanda sabitliyin tərəfdarıdır:** "Rusiya ümid edir ki, Azərbaycan xalqı qarşıdan gələn parlament seçkilərində doğru seçim edəcək. Bir çox Qərb təşkilatlarının Azərbaycanda seçkiqabağı neqativ ab-hava yaratmaq cəhdləri uğursuzluğa düçar olub".

❑ **E.SEYİDAĞA**

# Deyilənlər edilsə...



**Hüseynbala SƏLİMOV**

**Bir neçə gündür ki, ölkədə sahibkarlığın inkişafı ilə bağlı deyilənlər və bu xüsusda verilən bəyanatlar şübhəsiz ki, maraq kəsb etməyə bilməz - bir tərəfdən Azərbaycan üçün alternativ iqtisadi imkanların aranması baxımından onlar bir qədər təbii görünür, o biri tərəfdən də illərlə ölkə iqtisadiyyatında kök salmış ən neqativ tendensiyaların aradan qaldırılması nöqteyi-nəzərindən çox aktual təsir bağışlayır...**

Amma təkcə bəyanatlarla iş bitmir. Onların əməli davamı olmalıdır. Ölkə artıq inhisarçılıq və korrupsiya ilə bağlı da belə bəyanatların şahidi olub...

Ona görə istəməzdik ki, bütün bunların nəticəsi gurultulu bəyanatların sayının bir ədəd də artması olsun...

Güman edirik ki, ölkədə sahibkarlığın inkişafı ilə bağlı böyük bir proqrama ehtiyac var. Orada əsas diqqəti nəyə yönəltmək olardı? Təkcə Azərbaycanda deyil, bütün keçmiş sovet məkanında formalaşmış iqtisadi modeli vaxtilə Y.Qaydar öz kitabında "məmur kapitalizmi" adlandırmışdı...

Azərbaycanda bu model hələ də özünü hifz edib saxlayır - indiyə qədər ölkə iqtisadiyyatının əsas hissəsinə məmurlar nəzarət edir. Ola bilsin ki, bu, birbaşa edilmir və bir qədər dolayı yolla həyata keçirilir. Amma bu, mahiyyəti dəyişmir. İndiyədək, əgər səhv etmiriksə, məmurların gəlir deklarasiyası məsələsi həll olunmayıb və nəticədə iqtisadiyyat sektoru siyasi hakimiyyətdən ayrılmamış qalır...

Güman etmirik ki, indiki bəyanatlar bu problemin həllinə gətirib çıxaracaq. Di gəl, adam həqiqətən də ümid etmək istəyir...

Hətta sahibkarlara qısa müddətdə sərbəstlik verilsə və nəhayət, heç olmasa, bir dəfə ölkədə qiymətlərin formalaşması mexanizmi həqiqətən araşdırılsa bunların özəl sektora böyük təsiri ola bilər. İndi bu, ölkəyə hava və su kimi lazımdır. Qeyri-neft sektorunun inkişafı alternativ imkanlar axtarmağa sövq edir. Potensial olaraq belə imkanlar var. Bu, məsələn, ölkənin tranzit imkanını bir daha nəzərdən keçirmək ola bilər...

Bu yaxınlarda bununla bağlı xüsusi qurum da yaradıldı. Düşünürük ki, bunlara əlavə olaraq Bakı-Tbilisi-Qars dəmir yolunun işə salınması, eləcə də Azərbaycanla İranın dəmiryollarının birləşdirilməsi ölkənin tranzit potensialını xeyli artırmış olar. Amma bunun üçün xeyli iş görmək lazımdır və bu iş təkcə texniki məsələlərlə məhdudlaşmır. Gömrük sahəsində bir xeyli iş görmək lazım gələcək. Hökumətin buna qətiyyəti və iradəsi çatacaqmı? Hər bir halda çatmalıdır. Çatmasa bəyanatlar elə bəyanat kimi qalacaq və biz heç nə əldə etməyəcəyik...

Amma ölkənin maraqları tamam başqa davranış tərzini diqtə edir. Bu davranış tərzi bizim maraqlarımıza cavab verməyə də bilər. Fəqət, gəlin heç olmasa bircə kərə ölkənin maraqlarını öz maraqlarımızdan üstün tutmağı bacaraq. Bu, olmasa heç nə alınmayacaq. Təbii ki, məmurlar bu prosesi dayandırmağa və ya ona öz maraqlarına cavab verən çalarlar əlavə etməyə cəhd edəcəklər. Çox böyük ehtimalla belə olacaq. Amma neft ucuzlaşmaqda davam etsə necə? Onu önləyə bilən proqramımız varmı?..

Mən hələ heç onu demirəm ki, bizim üçün problem təkcə neftin ucuzlaşması deyil, bizim neft imkanlarımız sürətlə tükənir!..

Bu isə o deməkdir ki, ölkə mütləq alternativ imkanlar aramalıdır və o imkanları nə qədər tez, nə qədər intensiv araşdırılsa bizim üçün bir o qədər yaxşı ola bilər. Əks təqdirdə bizi hansı ssenarinin gözlədiyini təxmin etmək elə də çətin deyil-sürətlə yoxsullaşma, ÜDM-in sürətlə aşağı düşməsi, ölkədə yoxsulluğun və işsizliyin baş alıb getməsi...

Hələ ki ölkənin maddi resursları var. Maliyyə imkanları da kifayət qədərdir. Bu, bizə daha bir keçid mərhələsini nisbətən ağrısız keçməyə imkan verə bilər. Düzdür, bizim insanlar hələ də keçid sözünü sevmirlər. Amma bu da bir çox səbəblərdən labüd görünür...

Məsələ bundadır ki, qeyri-neft iqtisadiyyatına keçid kompleks tədbirlər tələb edir - iqtisadi azadlıqlar artırılmalıdır, inhisarçılıq və korrupsiya cilovlanmalıdır, təşəbbüskarlıq stimullaşdırılmalıdır, iqtisadiyyat daha şəffaf olmalıdır...

İndiki iqtisadi münasibətlər məcmusu neft iqtisadiyyatına hesablanıb - bəli, burada inhisarçılıq da ola bilərdi, hətta korrupsiya da... Ona görə ki, əsas gəlir neftdən gəlirdi. İndi isə belə olmayacaq... Ona görə də hamımız dəyişməliyik və bunu nə qədər sürətlə və problemsiz etsək, bir o qədər yaxşıdır...

# Azərbaycan İŞİD-i niyə terrorçu təşkilat kimi tanımır?

## **Fəzail Ağamalı:** "Belə məsələlərdə çox ehtiyatlı davranmalıyıq..."

**Xəbər verildiyi kimi, İsrail hökuməti İŞİD, "Nüsrə Cəbhəsi" və "Abdullah Əzzəm" briqadalarını terror təşkilatı elan edib. Baş nazir Benyamin Netanyahu isə bu təşkilatlarla daim mübarizə aparıldığını bildirib.**

Müxtəlif zamanlarda Azərbaycanda da İŞİD və digər bu kimi radikal-ekstremist qruplaşmalarla əlaqəli şəxslər hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb, mühakimə ediliblər. Məsələ indi də öz aktuallığını saxlayır. Başqa sözlə, ölkəmiz də İŞİD təhlükəsindən sığortalanmayıb.

Belədə sual ortaya çıxır: Azərbaycan İŞİD-i nədən terror qruplaşması kimi tanımır?

Məsələ ilə bağlı musavat.com-a danışan **deputat Fəzail Ağamalı** bildirdi ki, belə məsələlərdə çox ehtiyatlı davranmalıyıq: "Hesab edirəm ki, İŞİD kimi terrorçu təşkilata əsas verməli deyilik - baxmayaraq ki, bundan istifadə edib, onlar Azərbaycanda çox böyük problemlər yarada bilərlər. İŞİD-in terrorçu təşkilatı olması dünyanın aparıcı dövlətləri tərəfindən etiraf edilib. Bu İŞİD-in fəaliyyətinə son qoyubmu? Qoymayıb. Yəni bizim münasibətimizdən, bu qruplaşmanı terrorçu adlandırmağımızdan asılı olmayaraq, o, öz fəaliyyətini davam etdirəcək. Əgər biz Milli Məclisdə İŞİD-i terrorçu təşkilat kimi qəbul etsək və bununla qruplaşma öz fəaliyyətinə son qoysa, onda çox böyük məmnuniyyətlə bunun tərəfdarlarından biri olardım. Ancaq bizim və dünyanın aparmış olduğu fəaliyyət İŞİD-in fəaliyyətini dayandırmır.



Ona görə də mən bu cür məsələnin Azərbaycan Milli Məclisində qoyulmasının tərəfdarı deyiləm".

**Deputat, ümumiyyətlə, indiyədək hər hansı bir terror qruplaşması ilə bağlı Milli Məclisdə bu kimi qərarın qəbul olunmasının şahidi olmayıb:** "Ancaq biz hər dəfə Ermənistanı terrorçu ölkə kimi qeyd etmişik. Bu isə müvafiq sənədlərdə əksini tapıb. İsrailin bu qərarından sonra İŞİD-in fəaliyyətinin necə olacağını da söyləmək çətindir. Çünki bilmək olmur ki, İŞİD-ə kömək edənlər kimdir. Vaxtilə bu qruplaşmanın yaradılmasında rolu olan dövlətlər indi İŞİD-ə qarşı olan koalisiyada birləşiblər. Onlar da gördü ki, İŞİD artıq qoyulan bütün "qırmızı xətt"ləri keçdi və dünyaya sözün həqiqi mənasında böyük problemlər yaratmaqdadır. Bu gün artıq məhz bu qruplaşma regionda çox ciddi qarşıdurmalar və dağıntılara səbəb olur. Nəticədə isə hər kəs ilk olaraq özünün təhlükəsizliyini təmin etmək üçün anti-İŞİD koalisiyasına qoşulur və ya digər bu kimi müvafiq addımlar atır. Birmənalı şəkildə demək olar ki, İŞİD artıq beynəlxalq səviyyəli bir təhlükədir. Buna görə ona qarşı da elə beynəlxalq miqyaslı tədbirlərin aparılmasına ehtiyac var. Bunun üçün bütün ölkələrin imkanları koordinasiya olunmalı və vahid istiqamətdə mübarizə aparılmalıdır. Əgər hər hansı bir dövlət buna terrorçu adı verib, arxa planda isə dəstək olsa İŞİD həmin dövlət üçün də böyük problem yaradacaq".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 239 (6267) 29 oktyabr 2015



# Elimizin qızı Elza

Zamin HACI
zaminhaci@gmail.com

**Müğənni Elza Seyidcahan rayonlardan birindən deputatlığa namizədliyini verib, orda maraqlı, dramatik, tragikomik bir durumun yaranmasına səbəb olub. Məsələ ondadır ki, Elza xanım YAP üzvü olsa da, YAP-ın rəsmi namizəd siyahısında yer tutmur. Yapistlər oradan başqa bir şəxsi - illərdir deputatxanada düymə basan hansısa tipi dəstəkləyirlər. Elza xanım isə seçicilərlə görüşlərdə "Məni İlham Əliyev dəstəkləyir, mən onun namizədiyəm" deyib təbliğat aparırmış.**

Mənim yapistlərin daxili qovğalarına və düşük narahatçılıqlarına vaxt ayırmağa, üstəlik, hörmətli oxucularımı belə mövzularla yormağa həvəsim yoxdur, amma dünən xəbər lentində həmin rayonun YAP təşkilatı sədrinin məzəli açıqlamasını oxudum, istədim sizinlə bölüşüm. Adam yana-yana demişdi: "Bizi dəhşətə gətirən bilirsiniz nədir? Biz həmişə müxalifətlə mübarizə aparmışıq. İndi isə Yeni Azərbaycan Partiyasının üzvü bizimlə mübarizə aparır. Bu, qəbulolunmaz hərəkətdir. Mən inanıram ki, partiya onun haqqında tədbir görəcək, onu cəzalandıracaq. Elza Seyidcahan birbaşa partiyanın qərarına qarşı çıxır".

Şəxsən mən bunu çox ləzzətlə oxudum. Təki elə bu yapistlər həmişə dəhşətə gəlsinlər, çünki onları dəhşətə gətirən şey adətən Azərbaycanın xeyrinə olur. İndiki halda da Elza xanım, şəxsən mənim fikrimcə, çox yapist-deputatlardan yaxşı deputat ola bilər. Ən azı insanların deyib-gülməsinə səbəb olur, orijinal, ekstravaqant qadındır. *(Açığı, ekstravaqant sözünün mənasını heç özüm də bilmirəm, deyəsən, müsbət mənada əndirəbadi deməkdir).* Vokal imkanları da pis deyil.

Ancaq əlbəttə, Elza Seyidcahan da yapistdir. Yapistlər müxalifəti məhv edib zindanlara dolduranda bilməliydilər ki, gün gələcək, onların öz içindən müxalifət doğulacaq. Çünki müqəddəs yer boş qalmır, müxalifətçi yeri də müqəddəsdir. Bu yeri tutanlar var, seyid ocağı kimi bir şey yaradırlar, ağzın nədir hansısa tənqid edəsən, müridlər töküləşüb adamın sağ tikəsini qulağı boyda edirlər. Ya da liderin bədduası nəticəsində adamın beli qırılır. Ad çəkmirəm, çünki qorxuram mənim də ağzım əyilsin.

İndi Elza xanım da hakim partiya daxilində cupbulu bir fraksiya yaradaraq bir növ menşevikə dönmüşdür. Bolşeviklər Elza xanımı bəyənməyən Səyavuş Novruzov kimilərdir. Ar olsun onlara. Qadınların seçki təşəbbüslərini boğurlar.

Ümid edirəm rayon seçiciləri həqiqətə, incəliyə, zərifliyə - Elza xanıma səs verəcəkdir. Müğənniyə səs verin, səsi artsın, daha yaxşı oxusun. Yoxsa nə qədər Səyavuş, Zahid Oruc, Hacı Madər kimi səssiz adamlara səs veriləcəkdir?

Eyni zamanda "Elza Seyidcahan fenomeni" respublikamızın sekulyar gələcəyi baxımından da bizə çoxlu ümidlər verir. Bəzi gülməşəkər ekspertlər çoxdandır uca millətimizə, Qərbə-filana xəbərdarlıq edirdilər, deyirdilər gərək yapistləri dəstəkləyəsiniz, bunlar getsə dini radikallar gələcək, sizi dar ağacından asacaqdır. Bunu müxalifət də deyirdi. Guya sivil müxalifət məhv edilən ərazidə dini müxalifətin yaranması qaçılmazdır. Ancaq Elza xanımın mübarizəsi Azərbaycan xalqının yaradıcı potensialından xəbər verir, göstərir ki, bizdə avtoritarizmə alternativ olaraq fanatizm və ya liberalizm çıxmaya bilər. Bizdə tam yeni - dünya politologiya elmi üçün kəşf sayıla biləcək vokalitarizm hərəkatı peyda olacaqdır. Hələ başqa manıs yapistlər - Tolik, Nadir Qaraçuxurlu, Namiq Qafarzadə, Üzeyir, İlhamə Quliyeva və başqalarının da bu hərəkata qoşulacağına əminəm. Ortada örnəklər də var, Zeynəb Xanlarova 300 ildir deputatdır, heç olmazsa hər əsrdə bir dəfə Nardaranda dənizin hasara alınmasından dərin narahatlığını bildirir. O biri deputatların isə cınqırı çıxmır.

Hamınızı Elza xanıma səs verməyə səsləyirəm.



# Seçki ərəfəsində Qərbə yeni ittihamlar, Rusiyaya reveransların sirri

**Azərbaycan hakimiyyətinin aparıcı simalarının eyni zaman çərçivəsində Qərbə ünvanlı kəskin fikirlər səsləndirməsi, Avropa və Amerikanın Azərbaycan siyasətini sərt tənqid etməsi Bakı ilə Qərb arasındakı soyuq küləklərin hələ də əsdiyini təsdiqlədi. Son zamanlar ABŞ və Avropadan Azərbaycana səfər edən şəxslərin körpüləri bərpa etmək cəhdləri göstərdiyinə baxmayaraq, ixtilafların qaldığı və hətta növbəti sərt müstəviyə keçdiyinə artıq şübhə qalmayıb.**

Baş verənlərin Azərbaycandakı parlament seçkilərinə günlər qaldığı vaxta təsadüf etməsi də suallar doğurur. Qeyd edək ki, Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev Azərbaycan hakimiyyətinin mövqeyini açıqlayan məqalə yazıb. "Avropa strukturlarının deqradasiyasının mənbələri haqqında, yaxud Azərbaycana münasibətdə ikili standartlar" məqaləsində cənab Mehdiyev yaxınlaşmaqda olan seçkilərdə hakimiyyətin strategiyasını bir daha açıqlayıb və məqalədə əsas xətt kimi Qərbin təzyiqləri fonunda rəsmi Bakının tutduğu mövqedən çəkilməyəcəyi vurğulanıb. Eyni zamanda bir daha Qərbin "rəngli inqilablar" siyasətinə toxunub. O vurğulayıb ki, "prezidentin yürütdüyü siyasət ölkəmizi qeyri-sabit görmək istəyən Qərb dairələrini qıcıqlandırır". Administrasiya rəhbəri Novruz Məmmədovdan da Qərb təsisatları barədə sərt fikirlər gəlib. Parlament sədri Oqtay Əsədov isə Rusiyanın aparıcı KİV nümayəndələrinin bir qrupunun Milli Məclisdəki görüşündə Qərb ölkələrinin Azərbaycana təzyiqindən danışıb. Deyib ki, Azərbaycan Rusiyaya qarşı sanksiyalara qoşulmaqdan imtina etdiyinə görə Qərb ölkələri tərəfindən təzyiqlərə məruz qalır.

Rəsmilərimizin anti-Qərb mövqelərinin nəyə hesablandığı barədə fərqli fikirlər var. Bəzi ehtimallara görə, bu, Azərbaycanda vəziyyəti qarışdırmaq istəyənlərə mesajdır ki, ölkədə gərginlik yaratmaq istəsəniz, arxamızda Rusiya dayanacaq. Düzdür, bu, çox uzaqgedən versiyadır, amma yaşamaq haqqı olanlardandır. Digər ehtimallar da var.

**Politoloq Hikmət Hacızadə hesab edir ki, müşahidə olunanlar seçki ilə bağli deyil:** "Bizdə onsuz da seçki anlamına gələn bir şey yoxdur. Nəticələr hamıya əvvəldən aydındır. Amma belə çıxışlar Qarabağ məsələsinə bağlıdır. Yəni demək istəyirlər ki, "biz sizinləyik ey Kremldə oturanlar", - Qarabağı bizə verin, biz sadiq dostuq".

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu:** "Əgər kimsə bundan nəsə gözləyirsə, umursa, bu da baş tutan deyil. Guya bu cür mesajlar verməklə Qərb qaçıb gələcək Azərbaycanın ayağına... Məncə, bunu gözləmək yanlışdır. Məsələn, XİN başçısı Elmar Məmmədyarov son bir neçə ayda üç dəfə bəyanat verib ki, "biz Avrasiya İqtisadi Birliyinə qoşula bilərik". Gedin, qoşulun da, kimdir sizin qarşınızda duran? Qoşula bilərikmi, qoşulmaq istəyirikmi? Burada bir mövqe olmalıdır. Guya iki dəfə "qoşula bilərik" deməklə nəsə dəyişdimi? Əksinə, biz Qərbin münasibətində tənqidi tonların, çalarların artdığını müşahidə etdik. Artıq konkret mexanizmlər işə düşüb. Məsələn, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu seçkiləri müşahidə etməkdən imtina etdi. Düzdür, orda səbəb başqa oldu. Müşahidəçilərin sayı ilə bağlı yaranmış fikir ayrılığı ciddi rol oynadı. Amma eyni zamanda Avropa Şurası siyasi məhbuslarla bağlı yaradılmış İşçi Qrupundan çıxdı. İndiyədək bu tip hallar olmamışdı və bunların hamısı verilən bəyanatların - "biz Rusiyaya yaxınlaşa bilərik" kimi - fonunda oldu. Deməli, bu, effektiv vasitə deyil. Effektiv deyilsə, onda sadə dildə desək, çevir tatı, vur tatı deməyin nə mənası var?" **Politoloq deyir ki, əslində bu gün sözügedən məsələlər bir kənara atılmalıdır:** "Ölkənin daxilində iqtisadi islahatlar aparılmalıdır, dövlət idarəetmə sistemindəki ağır durum aradan qaldırılmalıdır. Bir nazirliyin timsalında bunu aydın şəkildə gördük. Mən düşünmürəm ki, başqa nazirliklər ondan yaxşıdır. Biz qarşıdan gələn parlament seçkilərinə olan münasibəti görürük. Ölkədə faktiki olaraq seçki əhval-ruhiyyəsi yoxdur. Bütün bunlar ola-ola ya Rusiyada, ya Qərbdə özünə dost-düşmən axtarmağın nə mənası var? Bu, nə dərəcədə siyasi texnologiyadır? Məncə, çox səmərəsizdir. Bu kimi davranışlar sırf siyasi nöqteyi-nəzərdən bircə məqamı açıq nümayiş etdirir ki, Azərbaycan hakimiyyəti nə Rusiyaya, nə Qərbə doğru xarici siyasət prioritetlərini ya müəyyənləşdirmək fikrində deyil, ya da bacarmır".



**Hikmət Hacızadə:** "Demək istəyirlər ki, "biz sizinləyik ey, Kremldə oturanlar!"



**Ərəstun Oruclu:** "Ya Rusiyada, ya Qərbdə özünə dost-düşmən axtarmağın nə mənası var?"



**Siyavuş Novruzov:** "Elə bunların hədəfində ancaq Azərbaycandır; o baxımdan da rəsmilərimiz haqlı olaraq öz fikirlərini söyləyirlər"

**YAP-ın icra katibinin müavini Siyavuş Novruzov isə fərqli düşünür:** "Azərbaycan həmişə balanslaşdırılmış siyasət yürüdüb, hər bir ölkənin Azərbaycana təpkisinə qarşı öz mövqeyini bildirib. Bu baxımdan da istər Prezident Administrasiyası rəhbərliyinin, onun müavinlərinin dediyi fikirlər bu gün Qərbdə Azərbaycana qarşı olan, Azərbaycanda azad, ədalətli, demokratik seçki keçirilməsini istəməyən qüvvələrə yönəlib. Həmin qüvvələr gah seçki prosesini pozmaq üçün müşahidəçilər məsələsi ilə bağlı oyun çıxartdılar, gah da başqa üsula əl atdılar, lakin heç nə baş tutmadı. Digər geopolitik məsələləri müşahidə edərkən də biz bunun şahidi oluruq ki, həmin dövlətlər anti-Azərbaycan mövqeyi tutur. Avropa Parlamentində Azərbaycana qarşı qərar qəbul edilir, amma dünən Ermənistanda atışma olub, nə qədər adam ölüb, ancaq bir kəlmə də olsun Avropa qurumları və dövlətləri baş verənlər haqda mövqe bildirmir. Elə bunların hədəfində ancaq Azərbaycandır. O baxımdan da rəsmilərimiz haqlı olaraq öz fikirlərini söyləyirlər". **S.Novruzov burada Rusiyaya yaxınlıq elementləri axtarmağı düzgün saymır:** "Rusiya Azərbaycanın daxili işlərinə qarışmır. Hər bir ölkənin daxili işləri var. Necə ki, biz heç kimin daxili işlərinə qarışmırıq. Biz hər bir ölkə ilə əməkdaşlığa hazırıq, ancaq daxili işlərimizə qarışmasınlar. Almaniya parlamentində Azərbaycan haqqında müzakirə aparılır. Sual olunur, sən hansı orqansan ki, belə müzakirə açırsan, BMT, ya digər struktur deyilsən".

❑ Cavìd TURAN

## Rusiya təhlükəsi demokratiya paytaxtlarını hərəkətə keçirir

# Azərbaycan üçün "Belarus modeli" - Qərb stereotipləri dəyişir

### Avropa Birliyi Minskdən sanksiyaları götürür; bu, ən əvvəl Bakıya aydın bir mesajdır; hakimiyyətin ikicə addımı kifayətdir ki...


Aleksandr Lukoşenko

**Avropa Birliyi (AB) bu həftənin sonunadək Belarusa qarşı tətbiq etdiyi sanksiyaları dayandırmağa hazırlaşır. Xəbəri AzadlıqRadiosunun Brüssel müxbiri Rixard Yozvyak özünün twitter hesabından yayıb. Jurnalistin əldə etdiyi bilgiyə görə, Avropa Birliyi Belarusun 14 şirkəti üzərindən sanksiyaları tamamilə götürməyi qərara alıb.**

Həmçinin sanksiya tətbiq olunan 175 məmurdan 171-i qadağalardan azad olunacaq. "Sanksiyalar cəmi 4 nəfərin üzərində qalacaq. Digər 171 nəfər ilkin olaraq 4 aylığa sanksiyalardan azad ediləcək" - əlavə edib "Azadlıq" əməkdaşı.

Qeyd edək ki, ölkədə keçirilən son prezident seçkisindən sonra Avropa Birliyinin prezidentinə istinadən Aleksandr Lukoşenkoya qarşı tətbiq edilən sanksiyanı götürəcəyi xəbərləri yayılmışdı. Hələlik üzərində sanksiya qalacaq 4 məmurun kimliyi bilinmir. Digər Belarus məmurları isə sanksiyalar götürüldükdən sonra Avropa Birliyinə gedə biləcək, onların dondurulan bank hesabları açılacaq.

***

Dərhal vurğulayaq ki, yayılan məlumatlar yetərincə mötəbər hesab olunur və həftəsonu həqiqətən də sanksiyalar aradan qaldırıla bilər. Belə görünür, Qərb Avrasiya *(postsovet)* məkanında antidemokratik rejimlərə münasibətdə sanksiya siyasətinə təzədən baxmağa hazırlaşır.

Baş verənlər Ukrayna böhranı səbəbindən Rusiya-Qərb münasibətlərinin gərginləşdiyi və yeni "soyuq müharibə" küləklərinin əsdiyi dövrə təsadüf eləməsi ilə diqqəti cəlb edir. Eyni zamanda proseslərin birbaşa və dolayısıyla Azərbaycana dəxli var. Bir neçə səbəbdən.

**Əvvəla,** hər iki ölkədə siyasi rejimlərin xarakteri oxşardır. **İkincisi,** Azərbaycan da, Belarus da Ukrayna məsələsində eyni mövqe tutmaqla Qərbin yanındadır. **Üçüncüsü,** hər ikisi postsovet ölkələridir və Avropa Birliyinin "Şərq tərəfdaşlığı" Proqramına üzv-ölkələrdir, üstəlik, bu proqram çərçivəsində Gürcüstan, Moldova və Ukraynadan fərqli olaraq, təşkilatla oxşar səviyyəli münasibətlərə malikdir. Bu üzdən AB Bakı və Minskə yanaşmada son zamanlar eyni prinsiplərdən çıxış edir.

Demək, Belarusa münasibətin yumşalması Qərbin Azərbaycanla bağlı strategiyaya da düzəliş edə biləcəyi ehtimalını artırır. Bu xüsusda ötən saylarımızın birində yazmışdıq. Qeyd etmişdik ki, Azərbaycanda 1 noyabr seçkilərindən sonra həm Qərb (ABŞ və Avropa), həm də rəsmi Bakı bölgədəki yeni situasiyanın və şərtlərin diktəsi altında qarşılıqlı münasibətlər strategiyasına düzəliş eləmək zorundadır, əks halda qazanan yalnız Rusiya olacaq.

Belə bir taktika artıq Belarusa münasibətdə özünü göstərməkdədir. O da diqqətçəkicidir ki, AB-nin Minsk üzərindən sanksiyaları götürmək istəyindən əvvəl prezident Aleksandr Lukaşenko ölkədəki siyasi məhbusları azad edib. Bunu da demokratiya paytaxtlarının ona qarşı loyal addımlar atmasına zəmin yaradıb. Hərçənd, ölkədə iki həftə öncə keçirilən prezident seçkiləri əvvəlkilərdən ciddi fərqlənməyib, beynəlxalq standartlara uyğun olmayıb.

Bir daha aydın olur ki, Qərbin Belarusa münasibətdə strategiyanı dəyişmək zərurətini digər amillər diktə edir. Hansılar? Biri qeyd olundu - Kremlin postsovet məkanında aqressiv davranışı. Yeri gəlmişkən, bir sıra Qərb analitikləri ABŞ və Avropanı bu davranışı neytrallaşdırmaq üçün təcili və qəti və fəal addımlar atmağa çağırıblar. Onların qənaətincə, ləngimə həmin ölkələrin dövlətçiliklərinin itirilməsi ilə sonuclana bilər. Söhbət həm də Güney Qafqaz ölkələrindən gedir.

***

Ancaq təkrar edirik, situasiya bu ölkələrin də hansısa qarşılıqlı addım atmasını tələb edir. Lukaşenko öhdəsinə düşənin minimumunu həyata keçirməyə çalışır. Onun Ukrayna böhranı ilə bağlı Kremlin qıcığına səbəb olsa da Kiyevi dəstəkləməsi və Qərbin yanında olması da bəllidir.

Deməli, Azərbaycanın edə biləcəyi daha çox şeylər var əslində.

Hər halda, Belarusu Azərbaycandan fərqləndirən mühüm özəlliklərdən biri orada siyasi məhbus probleminin faktiki, aradan qalxmasıdırsa, digər özəllik Belarusda korrupsiya-rüşvətin hətta AB-nin bəzi üzv ölkələrindən *(Bolqarıstan, Macarıstan, Rumınıya)* da aşağı səviyyədə olmasıdır. Söz yox ki, avtoritar idarəçi kimi tanınsa da bu, Lukaşenkonun xidməti, onun siyasi iradəsinin nəticəsidir.

Azərbaycana gəlincə, üzərində Rusiya təhlükəsinin müşahidə olunduğu postsovet ölkələrindən biri də odur. Ancaq Moskva təbii ki, Bakıdan siyasi məhbusların azad etməyi, korrupsiya-rüşvətin miqyasını azaltmağı tələb eləmir, sanksiyalarla da hədələmir - həm də o səbəbə ki, özü sanksiyalar altındadır.

Fəqət, ABŞ və Avropadan *(Avropa Parlamenti)* Bakıya sanksiya xəbərdarlıqları gəlir. Belarusdan sanksiyaların götürülməsi fonunda bu, bir qədər təzadlı görünə bilər. Lakin müşahidələrə görə, rəsmi Bakının ikicə addımı kifayətdir ki, bu söz-söhbətlər aradan qalxsın və qarşılığında dərhal Qərbin dəstəyini görsün. Bunlar siyasi məhbusların tezliklə azad eləməsi və ölkədə minimum səviyyədə, heç olmasa, Belarusdakı kimi iqtisadi-biznes azadlıqlarına təminat verilməsidir.

Prezident İlham Əliyevin sahibkarlığa dəstək yönündə göstərdiyi qətiyyət bu yöndə ümidlər yaradır. İstisna deyil ki, siyasi dustaqlar məsələsində də hakimiyyət nəhayət, gözlənilən dönüşü eləsin və bu ağır, Azərbaycana da, Qərbə də, hakimiyyətin özünə də gərək olmayan köhnə "yükdən" azad olsun.

Sonda əlavə edək ki, Bakının bu addımları Azərbaycanın suverenliyi və müstəqilliyini möhkəmlətmək imperativi ilə yanaşı, Qarabağ məsələsində demokratik dünyanın dəstəyini almaq, düşmən ölkənin anti-Azərbaycan təbliğatını kəsərsiz eləmək zərurətindən doğur.

❑ **Analitik xidmət**

# Avrasiya İttifaqına üzvlük yenidən aktuallaşır

### Ekspertlər Bakının siyasi gedişinin arxasındakı planı açıqladılar




**İqtisadiyyat və sənaye nazirinin müavini Sevinc Həsənova Azərbaycanın Avrasiya İttifaqına qoşulacağını istisna etməyən açıqlama ilə çıxış edib. Rusiyada səfərdə olarkən jurnalistlərin suallarını cavablandıran nazir müavini Azərbaycanın mövqeyini belə ifadə edib: "Biz Azərbaycana xeyir gətirəcək ittifaqlara üzvlüyün mümkün olduğunu düşünürük. Bunun üçün təşkilatlara üzv olmağımızın müsbət və mənfi cəhətlərini analiz etmək, detallı dəyərləndirmələr aparmaq lazımdır".**

Azərbaycan hakimiyyətinin yuxarı qatlarından da son günlər Rusiya ilə bağlı isti açıqlamaların sayı artıb. Bəs rəsmi Bakının Avrasiya İqtisadi Birliyinə üzvlüyü Azərbaycana nə verə bilər? Rəsmi Bakının Avrasiya İttifaqına qoşulmağı istisna etməyən bəyanatı siyasi manevrdir, yoxsa həqiqətən də hakimiyyət sözügedən İttifaqa daxil olacaq? Rusiyaya reverans bəyanatlarının parlament seçkilərinə az qaldığı vaxtda çoxalmasında məqsəd nə ola bilər?

**Azərbaycan Milli Strateji Təhqiqatlar Mərkəzinin rəhbəri Natiq Miri** hesab edir ki, antiqərb bəyanatlarının və Rusiyaya yönəlik isti bəyanatların səsləndiyi zamana diqqət etmək lazımdır. Bu bəyanatlar ATƏT-in, Avropa Parlamentinin 1 noyabr parlament seçkilərini legitim hesab etməyəcəyindən hakimiyyətin şübhələnməsinin ortaya çıxardığı bəyanatlardır: "Hakimiyyətdə belə bir fikir formalaşıb ki, Qərb seçkinin legitimliyini tanımayacaq. Bununla bağlı artıq müəyyən beynəlxalq sənədlərin hazırlandığı da dilə gətirilir. Anti-Qərb açıqlamaları və Avrasiya İttifaqına qoşula bilərik bəyanatları seçkinin nəticələrinin Qərb tərəfindən tanınmayacağı təqdirdə qabaqlayıcı addım kimi düşünülüb. Belə bir fikir yaratmaq istəyirlər ki, biz Qərbə yaxınlaşmadığımızı, Rusiya ilə münasibətləri yaxşılaşdırdığımız üçün Qərb qərəzli olaraq seçkilərə belə münasibət göstərir. Eyni zamanda indidən Qərbə mesaj verilir ki, seçkilərə mənfi qiymət verilməyəcəyi halda Avrasiya İttifaqına qoşulmaya da bilərik. Hakimiyyət Qərblə bazarlığa məhz Avrasiya İttifaqı kartı ilə getmək istəyir. Əslində bu bəyanatlar sadəcə həmin bazarlığa razılaşmaq məqsədilə verilib. Arxasında həqiqətən də Avrasiya İttifaqına daxil olmaq planı dayanmayıb. Çünki Azərbaycanı bu ittifaqa ciddi mənada qoşacaq nə iqtisadi, nə siyasi amil yoxdur. Azərbaycan torpaqlarını işğal edən, onunla müharibə vəziyyətində olan Ermənistanın üzv olduğu Avrasiya İqtisadi İttifaqına, Gömrük İttifaqına daxil olması mümkün deyil. Belə bir absurda gedilməsi inandırıcı deyil. Deyilə bilər ki, Ermənistan MDB-nin də üzvüdür və Azərbaycan da orada təmsil olunur. Ancaq bilmək lazımdır ki, MDB ilə Avrasiya İqtisadi İttifaqı, həmçinin Gömrük İttifaqı tamamilə fərqlidir. Azərbaycan hakimiyyətinin "Avrasiya İqtisadi İttifaqına daxil olmağı istisna etmirik" bəyanatı müvəqqəti geosiyasi gedişdir. Avrasiya İqtisadi İttifaqı mövzusunu rəsmi Bakı ona görə birdəfəlik qatlayıb kənara qoymur ki, lazım olanda siyasi manevr üçün istifadə edilsin".

**Milli Məclisin İqtisadiyyat komissiyasının üzvü Vahid Əhmədov da bildirib ki, belə bəyanatlar Azərbaycanın siyasi gedişlərdir:** "Azərbaycan müstəqil, açıq dövlət siyasəti aparır. Azərbaycanın bütün dövlətlərlə, o cümlədən Ermənistan istisna olmaqla, Avrasiya İttifaqına daxil olan ölkələrlə iqtisadi-siyasi əlaqələri mövcuddur. İqtisadi, siyasi, milli maraqlar Azərbaycanın xeyrinə olarsa, rəsmi Bakının istənilən ittifaqa qoşulması problem deyil".

**Vahid Əhmədov bununla belə, deyib ki, Azərbaycanın ixrac etdiyi məhsulların əsas hissəsi Avropa ölkələrinə gedir:** "Azərbaycan istənilən təşkilata üzv olmağı düşünərsə, dövlət başçısı cənab İlham Əliyev ilk olaraq milli maraqları, müstəqilliyi ön plana çəkir. Azərbaycan müstəqilliyinə, iqtisadi-siyasi maraqlarına xələl gətirməyəcək istənilən ittifaqa qoşula bilər. Amma sirr deyil ki, Azərbaycanın karbohidrogen ehtiyatları, neft-qazla ələqədar əsas ticarət tərəfdaşı Avropadır. Rusiya ilə də münasibətlərimiz yaxşıdır. Azərbaycanın Rusiya ilə iqtisadi-siyasi əlaqələri yüksək səviyyədədir. Nəzərə alınmalıdır ki, torpaqlarımızı işğalda saxlayan Ermənistan Avrasiya İqtisadi İttifaqının üzvüdür. Nə qədər ki, işğalçı dövlət sözügedən təşkilatın üzvüdür, Azərbaycanın ora qoşulması mümkün görünmür. Nə qədər Azərbaycan torpaqlarını zəbt edən işğalçı Ermənistan Avrasiya İqtisadi İttifaqına üzvdür, Azərbaycan həmin təşkilatda iştirak etməz".

❑ **Etibar SEYİDAĞA**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT

N 239 (6267) 28 oktyabr 2015



# Diplomatlar qaçqınları Qarabağa qaytarmaq üçün gəlir, yoxsa...

## ATƏT-in Minsk Qrupunun həmsədrləri İrəvandan sonra Bakıya səfər edəcək; prezidentləri görüşdürmək üçün növbəti cəhdlər başlayıb; ekspertlər nə düşünür?

**ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona növbəti səfəri başlayıb. Diplomatlar ilk olaraq işğalçı Ermənistanın paytaxtına gedib və bir sıra görüşlər keçiriblər.**

Ermənistan prezidenti Serj Sərkisyan ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya), Ceyms Uorlik (ABŞ), Pyer Andrie (Fransa) və qurumun fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi səfir Anjey Kasprşiki qəbul edib. Ermənistan prezidentinin informasiya və ictimaiyyətlə əlaqələr üzrə idarəsinin məlumatına görə, görüşdə tərəflər Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması üzrə danışıqlar prosesinin hazırkı mərhələsi və gələcək addımlarla bağlı məsələləri müzakirə ediblər.

Erməni tərəfin sülhə nə dərəcədə "sadiq" olduğunu isə elə cəbhə xəttində son sutka ərzində atəşkəsin 99 dəfə pozulması da sübut edir. Odur ki, diplomatların bu səfərinin də ciddi əhəmiyyət daşımadığını indidən söyləyənlərin arqumentləri ilə razılaşmamaq mümkün deyil. Ancaq bu da var ki, bölgədə kifayət qədər ciddi və gərgin proseslərin cərəyan etməsi şəraitində Qarabağda müharibənin alovlanmasının böyük fəlakətlərə gətirib çıxaracağını hər kəs yaxşı bilir. Ona görə də yay aylarından davam edən gərginliyin minimuma endirilməsi istiqamətində növbəti təmasların ən yüksək səviyyədə təşkili zəruri hesab edilir, həmsədrlər də bu məqsədlə hərəkətə keçib. Diplomatların səfərində əldə oluna biləcək ən böyük uğur prezidentlərin 1 ildir baş tutmayan görüşünü, nəhayət, gerçəkləşdirməkdir. Xatırladaq ki, prezident İlham Əliyev erməni həmkarı ilə 2014-cü ilin 27 oktyabrında Parisdə görüşüb.

**ATƏT-in Minsk Qrupundakı amerikalı həmsədir Ceyms Uorlik də bildirib ki, həmsədrlər ilin sonunadək Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistan prezidenti Serj Sərkisyanın görüşünü təşkil etmək niyyətindədir. Onun sözlərinə görə, İrəvan və Bakı səfərlərində müzakirə edəcəkləri əsas məsələlərdən biri bu görüşü təşkil etməkdir.** "Bildiyimə görə, dekabrın əvvəlində Ermənistanda referendum keçiriləcək. Ona görə də prezidentlərin görüşü referendumdan sonra ilin sonunda təşkil edilə bilər" deyə, Uorlik vurğulayıb. Amerikalı həmsədr deyib ki, danışıqlar prosesi prezidentlər səviyyəsindən aşağı məqamlarda intensivləşdirilməlidir: "Bu, komissiya, yaxud işçi qrup şəklində ola bilər".

**Ancaq bu ərəfədə amerikalı diplomatın qaçqınların taleyini önə çıxarması, işğal altındakı əraziləri isə "unutması" qəribə vəziyyət yaradır.** "Qaçqınların problemi nəzərə alınmadan Dağlıq Qarabağ münaqişəsinin həlli mümkün deyil. Bölgədə yüz minlərlə qaçqın var. Onları mütləq dinləmək lazımdır. Qaçqınların öz evlərinə qayıtmasına imkan verilməlidir" deyə, C.Uorlik vurğulayıb. Həmsədr qeyd edib ki, Azərbaycana səfəri zamanı Azərbaycanın Dağlıq Qarabağ icmasının təmsilçiləri ilə də görüşəcəklər. Ancaq gerçəklik budur ki, Ermənistan ordusu işğal altındakı ərazilərdən çəkilməyincə, ərazilər minalardan təmizlənməyincə, infrastruktur bərpa olunmayınca yüz minlərlə azərbaycanlının dədə-baba yurduna qayıtması da mümkün deyil. Lakin diplomat nədənsə, işğal faktını arxa plana keçirir.

Amerikalı həmsədrin ziddiyyətli açıqlaması bununla bitmir. "Ermənistan və Azərbaycan silah tətbiqindən imtina etməlidir". Uorlik twitter-dəki səhifəsində belə yazıb. O bildirib ki, Ermənistan və Azərbaycan təcavüz və ya qisas aktı olmasından asılı olmayaraq, silah tətbiq etməkdən imtina etməlidir. Ancaq yenə də gerçəklik arxaya keçirilir. Azərbaycan əraziləri işğaldan azad olunsa, o halda bu qədər silah-sursat, orduya ayrılan vəsaitə də ehtiyac qalmaz, xalqımız dinc həyatını yaşayar. Yəni işğalçı ilə işğala məruz qalan arasında bərabərlik işarəsinin qoyulması heç də normal qarşılana bilməz. Həmsədrlərin belə bir mövqe sərgilməsi isə ədalətin bərpasına imkan verməyən amillərdəndir. Hər halda, 28 oktyabrda Bakıda keçirəcəkləri görüşlərdə diplomatların konkret nə istədiyi bəlli olacaq və Azərbaycanın iradları da onların nəzərinə çatdırılacaq.

**Politoloq Arzu Nağıyev hesab edir ki, bu səfər də əvvəlkilərin təkrarına çevrilsə, müsbət istiqamətdə hər hansı bir irəliləyiş gözləmək düzgün olmazdı:** "Hazirda İrəvanda olan ATƏT-in amerikalı həmsədri Ceyms Uorlik indi də qaçqınların qayıtması məsələsini ortaya atıb. Məlumdur ki, məhz ATƏT tərəfindən razılaşdırılan Madrid prinsipində bu öz əksini tapıb və ərazi bütövlüyü məsələsindən sonra ikinci müddəadır. Bunun üçün ilk öncə işğal olunmuş ərazilər boşaldılmalı, minalardan təmizlənməli və bir sıra işlər görülməlidir, bundan sonra qaçqınların hər iki tərəfdən qayıtmaq məsələsinə baxıla bilər və indiki şəraitdə çox çətin olsa da öz həllini tapa bilər. Bu gün isə bu problemi ortaya atmaq məsələnin həllinin uzanması deməkdir. Bundan başqa, Azərbaycan və erməni rəhbərlərinin görüşü məsələsinin vacibliyini qeyd edən həmsədr eyni zamanda bildirir ki, dekabrın əvvəlində Ermənistanda referendum keçiriləcək *(konstitusiya islahatı ilə bağlı referendum )* və prezidentlərin görüşü ilin sonunda təşkil edilə bilər. Referendumun əsas məqsədi prezidentin səlahiyyətlərinin azaldılıb parlamentə verilməsidir və yəqin ki, səlahiyyətlər parlamentə verildikdən sonra Serj Sərkisyan cavabdehliyi öz üzərindən atmaq üçün növbəti addım kimi parlamentdən icazə istəyəcək və bu görüşün baş tutmamasına çalışacaqdır. Bir sözlə, müsbət istiqamətdə hər hansı bir yenilik gözləmək düzgün olmazdı. Sürpriz ondan ibarət ola bilər ki, Sərkisyan görüşdən imtina etsin və belə bir şəraitdə görüş heç Azərbaycan tərəfini də qane etmir".



**Prezidentlərin BMT Baş Assambleyası çərçivəsində keçirilməsi nəzərdə tutulan görüşündə Rusiya maraqlı olmadı. Eyni zamanda Qazaxıstandakı MDB toplantısında da Putin tərəfləri bir araya gətirmədi. Bu mənada növbəti görüş razılaşmasına Moskvanın hansısa sürprizlərinin olması da istisna edilmir. Çünki Rusiya postsovet məkanında proseslərin öz nəzarətindən çıxmasını istəmir. Ancaq politoloq Qabil Hüseynli hesab edir ki, prezidentlər elə Moskvada görüşə bilərlər:** "Çünki İlham Əliyev və Serj Sərkisyan Moskvanı daha münasib hesab edirlər. Bunun səbəbi odur ki, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi ilə bağlı Rusiya status-kvonun dəyişdirilməsində maraqlı kimi görünür. Moskva Dağlıq Qarabağın hüdudlarından kənardakı 7 rayonun mərhələ-mərhələ Azərbaycana qaytarılması məsələsində konstruktiv mövqedə dayandığını göstərmək istəyir. Düşünürəm ki, görüşün gündəliyini və yerini müəyyənləşdirmək çətin olmayacaq" (modern.az). **Politoloq qeyd edib ki, prezidentlər görüşsə, Ermənistan tərəfi yenə də Dağlıq Qarabağın statusu məsələsini ortaya atacaq:** "Ermənistan tərəfi həmişə Dağlıq Qarabağın statusunu önə çəkərək danışıqlar prosesinə əngəl törədib".

**A.Nağıyev isə "Yeni Müsavat"a dedi ki, Rusiya həmişə öz maraqlarından çıxış edir və lazım bilsəydi, bu görüşü təşkil edərdi:** "Qorxulusu odur ki, belə görüşlər haqqında hər dəfə anons veriləndə Dağlıq Qarabağın təmas xəttində və sərhəd rayonlarda atəşkəs intensiv surətdə pozulur. Təbii ki, ABŞ-ın təşəbbüsü ələ alması Rusiyanı razı sala bilməz və buna mane olmağa çalışacaqdır".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu da "Yeni Müsavat"a açıqlamasında həmsədrlərin bölgəyə növbəti səfərindən real heç nə gözləmədiyini vurğuladı:** "Bu səfərin yeganə məqsədi Azərbaycan və Ermənistan prezidentlərini ilin sonuna qədər görüşdürməkdir. Birincisi, belə bir görüşün baş tutacağı ehtimalı azdır. Çünki danışıqlarda irəliləyiş yoxdursa, bu görüşün əhəmiyyəti yoxdur. Bu görüşdə daha çox Ermənistan prezidenti maraqlıdır. Rəsmi İrəvan status-kvonun davamına çalışır ki, bu nəticəsiz görüşlər Ermənistanın işinə yarayır. Qarşı tərəf danışıqların davam etməsi görüntüsü yaradır. Həmsədrlər bir də onu istəyirlər ki, prezidentlərin görüşü vasitəsilə cəbhə bölgəsindəki sakitlik bərpa olunsun. Bu amil də rəsmi Bakının maraqlarına cavab vermir. Çünki Azərbaycan hakimiyyətinin yeni hərbi strategiyasına görə işğalçını daima təzyiq altında saxlamaq lazımdır. İkincisi, prezidentlərin görüşünün baş tutacağını ehtimal etsək belə, bu, növbəti nəticəsiz görüşlərdən biri olacaq. Belə bir görüş isə cəbhə bölgəsindəki vəziyyəti daha da gərginləşdirəcək".

**E.Şahinoğlu da bu arada, ATƏT-in amerikalı həmsədri Ceyms Uorlikin qaçqınların geri qayıtmasının vacibliyi barədə dediklərini diqqətçəkən məqam kimi dəyərləndirdi:** "Bu açıqlama Azərbaycanın çoxdan tələb etdiyi şərtlərdən biridir. Ancaq Uorlik bu açıqlamasının reallığa çevrilməsi üçün Ermənistan hakimiyyətinə nəsə təklif edirmi? Vaxtilə Uorlik Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması vacibliyini də dilə gətirmişdi. Müsbət açıqlama idi, ancaq bunun da davamı gəlmədi. Bir sözlə, həmsədrlərin fəaliyyəti yalnız söz yığnağından ibarətdir. Əvvəl yenə Madrid planından danışılırdı, indi bu da yaddan çıxıb".

**Uorlikin tərəfləri silahlardan imtinaya çağırmasına gəldikdə, E.Şahinoğlu qeyd etdi ki, bu da bizim xeyrimizə deyil:** "Düşmən daima təzyiq altında olmalıdır. Təzyiq olmasa, Ermənistanın geri çəkilməyə nə marağı olacaq?" **Ekspert deyir ki, Moskva istənilən zaman təşəbbüsü ələ bilər:** "Sadəcə, hələ ki buna ehtiyac yoxdur. Moskva həm Ermənistana, həm də Azərbaycana təsir etdiyini düşünür". **Deməli, prezidentlər görüşəcəksə, Moskvanın da razılığı olacaq? E.Şahinoğlu:** "Əlbəttə. Çünki rusiyalı həmsədr məsələnin mahiyyətindən xəbərdardır. Yoxsa Uolik istəyir deyə prezidentlərin görüşü mümkün olmaz. Uorlik Moskvanın da istəkləri ilə hesablaşmaq məcburiyyətindədir".

**ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə gözlənilən görüşdən danışan Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyinin rəhbəri Bayram Səfərov modern.az-a açıqlamasında görüşün vaxtının məlum olmadığını bildirib. Onun sözlərinə görə, görüşdə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı azərbaycanlı icmasının mövqeyi müzakirə olunacaq:** "Bizim əsas istəyimiz işğal altında olan torpaqlarımızın geri qaytarılmasıdır və bu istiqamətdə danışıqlar gedir. Ermənistanın işğalçı ordusu Azərbaycan ərazilərindən çıxarılmalı və torpaqlarda tezliklə legitim hökumət bərpa olunmalıdır. Bu baxımdan da Azərbaycan ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşlərin keçirilməsində maraqlıdır, amma görüşün nə zaman baş tutacağı məlum deyil".

Gözləyək, görək sayı-hesabı bilinməyən həmsədrlərin səfərlərinin növbəti seriyası nə ilə bitəcək..? Ən azı davranışlarda Uorlikin yazdığı kimi, qaçqınların Qarabağa qaytarılması məsələsində diplomatların nə dərəcədə ciddi olub-olmadığı aydınlaşacaq...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Hazırladı: Elşad PAŞASOY

**Eldar Mahmudov nazir vəzifəsindən azad edildəndən sonra Milli Təhlükəsizlik Nazirliyində son 11 ildə baş verən şərləmələr, sahibkarlara qarşı qanunsuz ittihamların irəli sürülməsi, iş adamlarından ən müxtəlif adlarla xərac toplanması, ölkəyə gətirilən qızıl-zinət əşyalarına görə bac alınması, taxta-şalbana görə faizlər yığılması və daha nələr haqda məlumatlar yayılmaqdadır.**



# MTN-də Ermənistanı matəmə qərq edən azərbaycanlıya divan tutulub

## Kəşfiyyatçı Ramiz Əliyev: "Bunlar mütəşəkkil qrupdurlar, onları cəzasız buraxmaq xalqı, sahibkarları təhlükədə qoymaqdır"





"Yeni Müsavat"a MTN-dəki qanunsuzluqlarla üz-üzə qalmış iş adamlarından, sahibkarlardan, qızıl-zinət əşyaları alveri edən şəxslərdən onlarla müraciətlər var.

Redaksiyamıza müraciət edənlərdən biri də Kəlbəcər köçkünü, hazırda Gəncədə məskunlaşmış Ramiz Əliyevdir. R.Əliyev deyir ki, o da, digər sahibkarlar kimi, bu qurumdakı "pulçəkən maşın"dan keçənlərdəndir.

Ermənilərin torpaqlarımıza təcavüzü zamanı mərdliklə döyüşən, kəşfiyyatçı kimi ermənilərə qan udduran, bu gün də bədənində 48 qəlpə, 2 güllə yarası gəzdirən, barmaqlarını itirmiş R.Əliyevi dinlədikcə millətin təhlükəsizliyi tapşırılan qurumda hökm sürən qanunsuzluq mühiti haqda müfəssəl təsəvvür yaranır.

**O deyir:** "Məni 2014-cü il oktyabrın 31-də "Sınıq körpü"dən Azərbaycana keçəndən dərhal sonra tutdular. Olduğum taksinin qabağını bir maşın kəsdi, arxada da biri saxladı. Maşınlardan düşənlər dedilər ki, MTN-dəndirlər. Taksi sürücüsü Əli Əliyevi və məni MTN-in Qazax şöbəsinə, oradan da Bakıya, nazirliyin özünə gətirdilər. Mənə dedilər ki, səni güdmüşük, üzərində 398 qram qızıl var. Başqa nəsə olub-olmadığını soruşdum. Dedilər ki, səndə olan ancaq qızıldır. Dedim ki, qızıldırsa, bu nə əməliyyatdır? Gömrükçülər məni tutub bəyan etmədən qızıl keçirdiyimə görə cərimələyərdilər, məsələ həll olardı. Məgər üzərimdə atom bombası var ki, mənə qarşı belə bir əməliyyat keçirirsiz?"

**Onun sözlərinə görə, 6 ay davam edən istintaq zamanı gördüklərindən dəhşətə gəlib:** "Dövlət mənə 45 manat təqaüd verir. Həmin pulla mən xəstə övladımı, 2-ci qrup əlil yoldaşımı, xəstə anamı və 2 uşağımı saxlaya bilmərəm. Ona görə də qızıl alverçisinə çevrilmişəm. Bunu məni tutan MTN-çilərə də dedim. Dedilər ki, sənin kim olduğunu səndən yaxşı bilirik. Mənim Qarabağ veteranı olduğumu, kəşfiyyatçı olmağımla bağlı məlumatları, döyüş yolum haqda danışdılar. Üstəlik, dedilər ki, sən 1992-ci il mayın 8-də Kəlbəcərdə ermənilərin AN-24 təyyarəsini vurmusan, təyyarədə olan erməni dövlət xadimləri ölüblər. Buna görə də Ermənistanda rəsmi matəm elan olunub.

Təyyarəni vurduğuma görə mənə o dövrdə Kəlbəcərin icra başçısı İlham Həsənov 10 min rubl mükafat da vermişdi. Amma həmin təyyarədə ermənilərin dövlət xadimlərinin olduğunu, bu hadisəyə görə Ermənistanda matəm elan olunduğunu mənə MTN-də dedilər. İşi MTN-in İstintaq İdarəsinin müstəntiq qrupunun rəhbəri Yasin Məmmədov aparırdı. Ona dedim ki, bunları bilirsənsə, heç olmasa məni zaminə buraxın. Əli ilə 1 işarəsi göstərdi. Soruşdum, dedi ki, 100 min gətir, səni zaminə buraxaq. Erməni təyyarəsini vurduğuma görə bu məbləği istədiyini xəbər aldım. Cavab verdi ki, Azərbaycan təyyarəsini vursaydın, 300-400 min alardıq. Əsəblərim dözmədi, qışqırdım, qollarımı tutdular. Yasin Məmmədov kresloya yayxanıb dedi ki, get yat, ağlın başına gələr".

**Ramiz Əliyevin sözlərinə görə, tutulana qədər Tiflisə tez-tez gedib:** "Oradan yoldaşıma, ağır xəstə olan oğluma dərmanlar alıb gətirirdim. Sonuncu səfərim də bununla bağlı idi. Oradan qızıl alacağımızı heç kimə deməmişdim. Gəncədə bir taksi sürücüsü ilə Tiflisə gedib qayıtmağa görə 100 dollara qiymətləşmişdik. Tiflisdə onu bazarın yanında qoyub gedib dərman almışam, oradan da gedib qızıl alıb gəlib maşına



İş № 1(088)-160/2015

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN
HÖKM

15 iyul 2015-ci il

Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi Mahmudov Faiq ... sədrliyi, hakimlər Məmmədov Mübariz Sərxoş oğlu və Əzizov Sevindik... ibarət tərkibdə, məhkəmə iclasının katibi İsgəndərov Bəhruz Ramiz ... ittihamçısı – Azərbaycan Respublikası Baş Prokurorluğunun Döv... müdafiəsi üzrə idarənin Ağır cinayətlər məhkəmələrində dövlət ittiham... üzrə şöbəsinin prokuroru, kiçik ədliyyə müşaviri Bəylərov Murtu... müdafiəçilər – Gəncə şəhər hüquq məsləhətxanasının vəkilləri Seyidli S... qızının, Vəliyeva Tünzalə Gülmalı qızının və tərcüməçi – mütəxəsis ... Müzəffər qızının iştirakları ilə,

10 yanvar 1964-cü ildə Kəl...

oturmuşam. Məni tutandan sonra bildim ki, MTN-çilər məni güdüblər. Sanki qatı cinayətkaram. Taksi sürücüsü Əli Əliyevi də mənimlə əlbir olmaqda suçladılar. Dedilər ki, guya biz dəstə üzvləriyik. Bunu ona görə edirdilər ki, guya böyük bir qaçaqmalçı dəstəni tutublar, bizdən pul qoparsınlar. Mənə həbsdə olduğum 6 ayın 3 ayını ailəmlə danışmağa imkan vermədilər. Taksi sürücüsü isə 6 ay uşaqları ilə danışa bilmədi. Mənə ailəm vəkil tutmuşdu. Vəkil MTN-ə gəldi, amma Yasin Məmmədov ona cinayət işi ilə tanış olmağa imkan vermədi. Özlərinin təyin etdiyi "paykovı" vəkilin ümidinə qaldım. 6 ay ərzində məni MTN-in İstintaq Təcridxanasında 17-ci kamerada Suriyadan gəlmiş İŞİD-çı Maarif Mərdanovla bir yerdə saxladılar. Bilirdilər ki, mən öz torpaqlarımız uğrunda döyüşmüşəm. Mən şiəyəm, o isə radikal vəhhabi. O, Suriyada şiələrin başını kəsib, güllə atıb. 10 dəfə Təhsin Ağayevə, Baş İstintaq İdarəsinin rəisi general Mövlam Şıxəliyevə də ərizə yazmışdım ki, məni qəbul edin. Qəbul etmədilər. Mən məhkəmədə olanda bildim ki, iş üzrə 31 nəfər dindirilib. Amma mənimlə nə onları, nə də Əlini üzləşdirməyiblər. Əli ilə mənim üzləşməm keçirilməyib. Cinayət işi 4 cilddən ibarət idi, 1275 səhifədir. Üstəlik, əlavə sənədlər də var. Qızıl alveri etdiyim 21 nəfəri MTN-ə aparıblar. Bu şəxslərin evlərində, iş yerlərində axtarışlar olub.

Bakıda Mərkəzi Univermaqda qızıl alveri edənlər - Elçin Əhmədov, Ağasalam Ağamalıyev, Moskva Univermağından - Məhəmməd Hüseynov, Azad Rəşidov, Məzahir Manafov, Teymur Ağalarov, Məhərrəm Məmmədov, Gəncə şəhərində Eldar Əliyev, Samir Hüseynov, Şahmalı Məmmədov, Fizuli, Gülnarə, Şəkidən Əli və 2 taksi sürücüsü - Aqil və Hafiz. Əlavə 3 nəfər var ki, bu adamları ümumiyyətlə tanımıram - Vüqar Həsənov, Əliməmməd Məmmədov və Ayaz Vəliyev.

Gəncə Mərkəzi Univermağında "Zaminbank"ın şöbəsində valyutadəyişmə məntəqəsində işləyən Vüqarı da saxlayıblar. Mənə salam vermiş qızıl alverçilərinin başına zülm-zillət gətiriblər. Bu adamlardan 200 min manatdan çox pul yığıblar. Mən azad olunandan sonra bu adamlar mənimlə düşmən münasibəti saxlayırlar. Deyirlər ki, sənə görə bizim dərimizi soyublar, bizi böyük ziyana salmısan. Mən "etdiyim" əmələ görə cəzamı çəkməyə hazır idim. Amma bunlar məni camaatla düşmən ediblər. Üstəlik, iş üzrə dindirilən adamlar bu günün özündə də qorxurlar. Bu şəxslərin başına oyun açıldığını, onların milyonlarla manat dəyəri olan qızıl-brilyantlarının MTN-ə aparılmasını, adamların orada incidilməsini 6 ay sonra bilmişəm. O adamlarla məni üzləşdirməyiblər. Mən qızılı ehtiyac üzündən Tiflisdən gətirmişəm. Bunu gizlin etmişəm. Heç kimə deməmişəm. Kimə deməliydim ki, Gürcüstanda ucuz mal var? Elə həmin adamlar da gedib qızılı oradan alardılar da. Təsəvvür edin ki, mənim bədənim qəlpə içindədir. Kəlbəcər, Ağdərə, Laçında döyüşmüşəm. Mən 1992-ci il mayın 8-də Ağdərənin Narınclar kəndində "İqla" raketindən Ermənistanın "AN-24" təyyarəsini vurmuşam. Bundan bir neçə gün sonra 2-ci erməni təyyarəsini vurmuşam. 4 tank da vurmuşam. Kəlbəcərin polis rəisi və komendantı Nizami Məmmədov məni yaxşı tanıyır. Bilir ki, mən hansı əməliyyatları həyata keçirmişəm. Kəlbəcərdən qızıl mədənindən Ermənistana gedən dəmir yolunu şəxsən partlatmışam. Erməni qızılı daşıyıb satırdı, əvəzinə silah alıb üstümüzə hücuma keçirdi. Ağdaban hadisəsində düşmənin arxasında olmuşam, orada diversiya törətmişəm. MTN-in həkimləri bədənimdə 48 qəlpə, 2 güllə yarası sayıb işə əlavə elədilər. Psixoloji durumumu isə 4 ay sonra yoxladılar. İstəyirdilər ki, İŞİD-çini orada öldürüm? 6 ay guya istintaq apardılar, işi məhkəməyə göndərdilər. Qardaşım Zahid Əliyevdən işimi yüngülləşdirməkdən ötrü Yasin Məmmədov 2 qızıl onluq və 13 min dollar almışdı. Lakin işi məhkəməyə ağır maddə ilə göndərmişdilər. Qardaşıma 10 min manat qaytarıblar. İttiham aktında Yasin Məmmədov şəxsiyyətimi xarakterizə edən məlumatlarda yazır ki, Qarabağ veteranıdır, yoldaşı 2-ci qrup əlildir, himayəsində ağır xəstə olan azyaşlı övladı var, anam himayəmdədir, ağır xəstədir, məcburi köçkünəm, Gəncədə məskunlaşmışam və altdan da yazır ki, yüngülləşdirici hal qeydə alınmadı. İşi Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərdilər. Orada məhkəməni yarımqapalı keçirdilər. 3 ay məhkəmədən sonra məni və heç bir günahı olmayan Əli Əliyevi 5 il şərti cəzaya məhkum etdilər".

**R.Əliyev ölkə prezidentinə, baş prokuror Zakir Qaralova, milli təhlükəsizlik nazirinin 1-ci müavini Mədət Quliyevə müraciət ünvanlayıb:** "Mənim yoldaşım və ağır xəstə olan övladım həbs olunana qədər Tiflisdə müalicə olunurdular. Bu gün ölkədən çıxışıma qadağa qoyublar. Həmin qadağanın götürülməsinə göstəriş verin. Ailəmin durumu bərbaddır. Əli Əliyev günahsızdır, ona vurulan mənəvi və maddi ziyanı ödəsinlər. Məni düşmən etdikləri şəxslərdən aldıqları pulları qaytarsınlar. Məndən ermənilərin qisasını alan istintaqçılardan bunun səbəbini də soruşsunlar. Mən onların hansı qohumunu öldürmüşəm ki, belə qisas alırdılar? Prezidentimizə arxayınam, Yasin Məmmədov kimilər Azərbaycan xalqına, sahibkarlara qənim kəsiliblər. Bunlar mütəşəkkil qrupdurlar, onları cəzasız buraxmaq xalqı, sahibkarları təhlükədə qoymaqdır".

**E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 239 (6267) 28 oktyabr 2015

# Azərbaycanda psixoloqlara "yaşıl işıq" yandırıldı...

## Ölkə əhalisinin ruhi gərginliyi hökumət tərəfindən də təsdiqləndi



**Səhiyyə naziri Oqtay Şirəliyevin imzaladığı əmrə əsasən, ilk dəfə olaraq Azərbaycanda tibb müəssisələrində klinik psixoloqlar fəaliyyət göstərəcəklər. Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda göstərilir ki, ölkədə psixi sağlamlıq xidmətlərinin daha yaxşı təşkil edilməsi üçün klinik psixoloqların tibb müəssisələrində çalışması olduqca vacibdir.**

İnsanlar xəstəliklər zamanı təkcə fiziki baxımdan deyil, eyni zamanda müxtəlif psixoloji problemlər və emosional halətlərlə qarşılaşırlar. Bu problemlərin vaxtında aşkar olunması və həll edilməsi şəxslərin psixososial adaptasiya imkanlarını genişləndirir. Məsələn, sonsuzluqdan uzun müddət müalicə alan qadının motivasiya və tələbatlar sisteminin, əhval-ruhiyyəsinin, şəxsiyyətlərarası münasibətlər sferasının və s. qiymətləndirilməsi və psixoloji müdaxilənin təşkil edilməsi onun həyat keyfiyyətlərini yüksəldəcək.

Azərbaycanda ailədaxili problemlərin həlli üçün ailə psixoloqu institutunun yaradılacağı da gözlənilir. Bu, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasına uyğun olaraq yeni hazırlanan "Azərbaycan Ailəsi Strategiyası" layihəsindəki təkliflərdən biridir.

Ailə psixoloqu institutunun yaradılması bu gün üçün çox mühüm məsələdir. Çünki mövcud durumda ailədaxili məsələlərin tənzimlənməsi, ailədə normal mühitin yaranması çox vacibdir.

Hesab edilir ki, kənar müdaxilə olduqda, qadın və kişinin psixoloji, fizioloji uyuşması düzgün olmadıqda ailədəki münasibətlərdə gərginlik yaranır. Bu da sonra münaqişələrə və cinayət hadisələrinin baş verməsinə gətirib çıxarır. Ailə psixoloqu institutlarının yaradılması yolu ilə bu kimi problemlərin həll edilməsi nəzərdə tutulur.

Artıq strategiya layihəsinin işçi qrup səviyyəsində ilk müzakirəsi keçirilib. Sənəd daha da təkmilləşdirildikdən sonra rəy alınması üçün digər dövlət qurumlarına göndəriləcək.

Psixoloji xidmət xalis praktik təşkilatdır. Psixoloji xidmətin əsas vəzifəsi psixologiya elminin nailiyyətləri səviyyəsində praktik problemləri həll etməkdən ibarətdir. İnkişaf etmiş ölkələrdə həmin məsələyə xüsusi diqqət yetirilir. Hətta keçmiş Sovet İttifaqında ictimai həyatın müxtəlif sahələrində psixoloji xidmət 80-ci illərin sonu - 70-ci illərin əvvəllərindən etibarən təşkil olunmağa başlamışdır.

Psixoloji xidmətin yeni və perspektivli bir sahəsi - ailə xidməti formalaşmışdır, lakin qeyd etmək lazımdır ki, hələ bizdə psixoloji xidmətin vahid sistemi yoxdur. Hələ də bir çox zavod və fabriklərdə, psixoloji xidmət məsələlərinə əslində əhəmiyyət verilmir.

Psixoloji xidmət prosesində bir tərəfdən rəhbər işçilərə, mühəndislərə və s., digər tərəfdən, vətəndaşlara müxtəlif formalarda əməli məsləhətlər və tövsiyələr verilir. Ailədə və kollektivdə mənəvi psixoloji iqlimin yaradılması, konfliktlərin aradan qaldırılması kimi məsələlərin həllində psixoloji yardım göstərilir. Bu zaman qeyri-adekvat reaksiyaları və davranış formalarını aradan qaldırmaq məqsədilə psixoloji korreksiya üsullarından da istifadə olunur. Hazırda sənaye, kütləvi komunikasiya və təbliğat, hüquqa zidd davranışla mübarizə, ticarət, məişət xidməti avtomobil nəqliyyatı və başqa sahələrdə psixoloji xidmətin müxtəlif formalarından istifadə zəruridir.

Amma bu məqamda insanlarımızı daha çox psixoloqla psixiatr arasındakı fərq məsələsi düşündürür. Maraqlıdır ki, fərqi dərk edənlər sayca çox deyillər.

Tibbi ədəbiyyatlarda isə qeyd olunub ki, psixologiya və psixiatriya ruhi sağlamlıqla bağlı sahələrdir. Hər ikisi eyni sahəylə bağlı olsa da, aradakı yeganə fərq psixiatrların tibb təhsili almasıdır. Buna görə fiziki səbəblərdən doğan psixoloji problemlərin həlli üçün psixiatra müraciət edilir. Bu cür problemlərlə bağlı dərman müalicəsi müəyyən etmək psixiatrların işidir. Psixoloji problemlə bağlı psixoloq yanına gedənlər dərman müalicəsi üçün psixiatra yönləndirilir.

Psixoloqlar davranışdakı problemləri araşdırır və psixiatrların dərman müalicəsiylə iş tamamlanır.

Psixi problemlər beyinlə bağlı fizioloji bir səbəblə əlaqəli ola bilər. Bu halda həmin insana bu düşüncəsinin doğru olmadığını başa salmaq, onun davranışında dəyişikliklər etməyə cəsarətləndirmək psixoterapiyaya aiddir.

Bəzən bu işlər psixoloq və psixiatr tərəfindən birgə aparılır. Psixiatr müayinəsindən keçənlər müalicəyə əməl etməklə həm də psixoloq yanına getməyə davam edə bilərlər. Bəzən isə hər iki müalicə psixiatr tərəfindən aparıla bilər.

Psixiatr Orxan Fərəcli hesab edir ki, bütün dünyada depressiyanın üç səbəbi var: bioloji, sosioloji və psixoloji. Bioloji səbəb həmişə olur. Beyində xoşbəxtlik hormonu deyilən maddənin miqdarı aşağı düşən kimi depressiya başlanır. Psixoloji səbəb isə cəmiyyətdə onu qane etməyən şeylərin çoxluğu və sairlə bağlıdır. Sosial səbəb isə özünə qarşı haqqını tələb edə bilməməsidir. Son dövrlər kredit borclarına görə insanların gərginlik yaşaması da səbəblərdən biridir. Amma bu, hər adamda olmur. Kim ki, bu cür situasiyaya meyllidir, depressiya da onda baş verir. Son nəticədə isə insanların yolu psixoloq, psixiatr qapısına düşür.

❑ **Sevinc TELMANQIZI**



# Marixuananın istifadəsi leqallaşa bilərmi?

## Leyla Yolçiyeva: "Azərbaycan qanunlarına görə ölkədə istənilən növ narkotikin istifadəsi qadağandır"

**Gürcüstan Konstitusiya Məhkəməsi marixuana istifadəsinə dair tarixi qərar verib. Belə ki, bundan sonra qonşu ölkədə məhkəmənin yeni qərarına uyğun olaraq, narkotik maddə ilə saxlanılan şəxsin bu maddədən şəxsi və ya satış məqsədi ilə istifadə etdiyi müəyyənləşdiriləmlidir. Əgər narkotik maddə şəxsi məqsədlə istifadə edilirsə, həmin adam həbs olunmayacaq.**

Gürcüstanda qəbul edilən bu qərarın Azərbaycan üçün hansı təsiri ola bilər? Ölkəmizdə marixuana istifadəsi leqallaşa bilərmi?

Məsələ ilə bağlı musavat.com-a Narkotiklərə Qarşı Milli Təbliğat Ofisinin müdir müavini Leyla Yolçiyeva danışıb. O bildirib ki, Azərbaycan qanunlarına görə, ölkədə istənilən növ narkotikin istifadəsi qadağandır: "Lakin dünyanın bir çox ölkələrində marixuana kimi narkotik vasitələrdən istifadə leqallaşdırılıb. Gürcüstanda və ya digər yaxın qonşu ölkələrdə marixuananın istifadəsinin qanuniləşdirilməsi o demək deyil ki, Azərbaycanda da bunu kimsə leqal şəkildə gətirə bilər. Bu mümkün deyil".

L.Yolçiyeva bildirib ki, Azərbaycanda qeyri-qanuni olaraq müxtəlif diskotekalarda, barlarda və bu kimi iaşə yerlərində tabletka şəklində olan narkotik vasitələrdən (həblər) istifadə olunması barədə siqnallar var. "Həmin həblər insanlara əlavə enerji verir. Məhz bu həblərin ölkəyə gətirilməsi üçün bəzi şəxslər müxtəlif yollara əl atırlar. Lakin hətta bu həblərin belə ölkədə qanuni yolla satışına icazə verilmir. Azərbaycan müstəqil ölkədir və bizim öz qanunlarımız var. Ölkədə bu kimi məsələlər qanunlara uyğun olaraq tənzimlənir".

L.Yolçiyeva ölkədəki narkotik istifadəçiləri ilə bağlı son statistik məlumatı da açıqlayıb: "Rəsmi statistikaya görə, ölkədə 28656 nəfər narkoman var. Bunun isə 554 nəfəri qadınlar, 666 nəfəri isə anonim müalicə alanlardır. Lakin bunu da qeyd edək ki, dünya təcrübəsinə görə, qeyri-rəsmi məlumatlar, rəsmi məlumatlardan 5 və ya 10 dəfə çox olur".

❑ **Əli RAİS**

# Kənd təsərrüfatı yarmarkaları bazara qayıdır, bu dəfə yeni ünvanlarda...

**Kənd Təsərrüfatı Nazirliyi Bakının müxtəlif rayonlarında keçirilən kənd təsərrüfatı məhsullarının həftəlik satış yarmarkalarını yenidən bərpa edib. Yaxın zamanlarda 10 ünvanda yarmarkaların təşkili həyata keçiriləcək.**

Bu məlumatları Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin rəhbəri Murtuzəli Hacıyev "Yeni Müsavat"a açıqlamasında bildirib. Nazirlik sözçüsü qeyd edib ki, yarmarkalar həftənin şənbə və bazar günləri aşağıdakı ünvanlarda keçiriləcək:

**Xətai rayonu** - Məzahir Rüstəmov küçəsi ("Bakı" kinoteatrının yanı);

**Səbayel rayonu** - Badamdar qəsəbəsi;

**Nərimanov rayonu** - Keşlə bazarının yanı;

**Binəqədi rayonu** - Dərnəgül qəsəbəsi;

**Suraxanı rayonu** - Əmircan qəsəbəsi".

"Kənd Təsərrüfatı Nazirliyi olaraq rayon icra hakimiyyətləri ilə danışıqlar aparmışıq ki, yarmarkaları daha da genişləndirək"-deyən M. Hacıyev bildirib ki, məqsəd kənd təsərrüfatı yarmarkalarının sayını 10-a çatdırmaqdır: "Bundan əlavə, bizə gələn çoxsaylı müraciətlər də göstərir ki, bu tip yarmarkalara tələbat var. Eyni zamanda Abşeron rayonunda və Sumqayıt şəhərində də kənd təsərrüfatı yarmarkalarının yaxın günlərdə açılması nəzərdə tutulur. Bildiyiniz kimi, bu ilin may ayından müxtəlif səbəblərdən kənd təsərrüfatı yarmarkaları keçirilmirdi. Lakin çoxsaylı müraciətlərdən sonra yenidən bərpa olundu. Bakı Şəhər İcra Hakimiyyəti ilə danışıqlar aparıldı və artıq lazımi ünvanlar müəyyənləşdirilib".

**Murtuzəli Hacıyev onu da qeyd etdi ki, kənd təsərrüfatı yarmarkalarının keçirilməsi bazarlarda qiymətlərin ucuzlaşmasına səbəb olur:** "Yarmarkaların keçirilməsi həm də bazarda kənd təsərrüfatı məhsullarının bahalaşmasının qarşısını alır. Artıq paytaxt bazarlarında bəzi məhsulların qiymətində müəyyən qədər bahalaşma var. Lakin ötən ilin bu dövrü ilə müqayisədə bəzi məhsulların qiymətində 10-20 faiz enmə müşahidə olunur. Əgər yarmarkalar keçirilmədiyi dövrdə pomidorun qiyməti 1-1.2 manat idisə, yarmarka fəaliyyətə başladıqdan sonra orada qiymət 50-70 qəpik arasında dəyişirsə, bu bazara da birbaşa təsir edir. Bu, istər pomidorun, istərsə də kartofun qiymətinə aiddir. Məsələn, yarmarkada yerli kartofun qiyməti 70-80 qəpik arasında dəyişir. Bazarda isə 1-1.2 manat idi. Bu qiymətlər bazara da təsir etdi".

**Kənd təsərrüfatı yarmarkalarının təşkil olunduğu ərazilərdə yollarda tıxacların yaranmasına səbəb olması ilə bağlı sualımızı cavablandıran Murtuzəli Hacıyev artıq bu problemin də aradan qaldırıldığını vurğuladı:** "Yarmarkaların təyin olunduğu ünvanlar Bakı Şəhəri İcra Hakimiyyəti ilə qarşılıqlı razılıq əsasında seçilib. Burada əsas əhalinin rahatlığı nəzərə alınıb və bunun üçün lazımi tədbirlər görülüb. Əsas yarmarkalardan biri Həzi Aslanov metro stansiyası yaxınlığında, Məhəmməd Hadi küçəsində əhalinin sıx məskunlaşdığı yerdə idi. Bu orada yaşayan sakinlərin narazılığına səbəb oldu. Ona görə də həmin yarmarka "Bakı" kinoteatrının yaxınlığına köçürülüb və indi həmin ərazidə yaşayan insanlar üçün hər hansı narahatlıq törətmir. Yarmarkalara insan axını var".



**Yerli bazarlarda çalışan işbazların fermer adı ilə bazara daxil olması məsələsinə gəlincə, nazirlik sözçüsü bunun da qarşısının alınması üçün tədbirlər görüldüyünü qeyd etdi:** "Biz müxtəlif rayonların yerli icra hakimiyyəti orqanlarına müraciət etmişik. Bölgü aparmışıq ki, hansı rayon Bakı şəhərinin hansı rayonuna məhsul çıxaracaq. Hər həftə üçüncü gündən başlayaraq rayonlardan məlumatlar daxil olur. O məlumatlar nədən ibarətdir? Məhsul istehsalçısının adı, ünvanı, onun maşınının nömrəsinə, gətirdiyi məhsulun çeşidinə qədər orada öz əksini tapır. Yəni istehsalçılar bilavasitə rayondan göndərilmiş məlumatlar əsasında orada yerləşdirilir. Hər biri yoxlanılır, araşdırılır, hətta şəxsiyyət vəsiqələrinə qədər yoxlama aparılır. Hazırda Əhmədli qəsəbəsində müəyyən qədər sıxlıq var, ancaq biz çalışırıq ki, heç bir satıcının məhsulu əlində qalmasın. Çünki yaxın günlərdə Sumqayıt şəhərində, Yasamal rayonunda yarmarkalar fəaliyyətə başlayacaq və bu sayədə Əhmədli qəsəbəsində olan sıxlıq aradan qaldırılıb".

❑ **Məğrur SALMANOV**

YENİ MÜSAVAT
N 239 (6267) 28 oktyabr 2015

**"Yeni Müsavat"ın budəfəki qonağı Gənc Tamaşaçılar Teatrının aktrisası, əməkdar artist Naibə Allahverdiyevadır. Aktrisa ilə dəfələrlə görüşməyə çalışsaq da, müəyyən səbəblərdən cəhdlərimiz boşa çıxırdı. Nəhayət ki, Naibə xanımın evində qonağı olub, onunla həyat və yaradıcılığı barədə söhbətlər etdik.**




# "Batumidə başımda yaylıq, əlimdə də kart gəzirdim, guya qaraçıyam..."

## Əməkdar artist Naibə Allahverdiyeva: "Aktyor plastilindir, yalnız yaxşı resjissor ondan istədiyi fiquru düzəldə bilər"

***- Akademik Dram Teatrının ətrafında xoşagəlməz qalmaqallar yaşandı. Sizin teatrda vəziyyət necədir?***

- Bu qalmaqallar mənə də pis təsir etdi. Ola bilsin ki, müəyyən anlaşılmazlıqlar var idi. Bildiyiniz kimi, hazırda teatrın baş rejissoru Azərpaşa Nemətovdur və mənə elə gəlir ki, ona etibar etmək olar.

Kim deyirsə ki, teatr yoxdur, bu yalandır. Teatrlarda yeni tamaşalar səhnələşdirilir. Sadəcə, tamaşalara gəlmək lazımdır. Bizim teatrın özünə məxsus daimi tamaşaçıları var, bu barədə heç bir problemimiz yoxdur. Bəziləri gündəmə qalmaqalla gəlmək istəyir, bu hardasa onlara lazımdır. Lakin biz şou adamı deyilik. Biz incəsənət nümayəndələri xaraktercə, yaşayış tərzinə, dünyaya baxışlarımıza görə şou adamlarından tamamilə fərqlənirik. Bir var, xalqa, incəsənətə xidmət edəsən, bir də var ki, şəxsi mənafeyin üçün çalışasan.

***- Amma son vaxtlar fədakar sənət adamlarının səfalət içində dünyasını dəyişdiklərinin şahidi oluruq...***

- Mən bu barədə çox fikirləşmirəm. Tamaşaçılar məndən inciməsin, amma bu məsələdə onları günahkar görürəm. Qalmaqallarla gündəmə gələn şəxsləri el şənliklərinə dəvət edib onları varlandıran, başda əyləşdirən kimdir? Əlbəttə, bizim tamaşaçılar. Halbuki onları qınayan, tənqid edən də elə tamaşaçıların özüdür. Bu vəziyyəti görən digərləri də artıq qalmaqallarla məşhurlaşmağa çalışır.

Çox kədərli haldır ki, gənclərdə də bayağılaşma gedir. Bu isə məlumatsızlıqdan irəli gəlir. Əvvəllər görkəmli şəxslər barəsində verilişlər olardı, kifayət qədər onların təbliğatı gedirdi. İndi isə bu kimi verilişlər demək olar, ya yoxdur, ya da azdır. Gənclərin başı internetə o qədər qarışıb ki, gözlərini açıb lazımi şeyləri görə bilmirlər. Uşaqlar valideynlərinə, valideynlər də uşaqlarına qarşı soyuqqanlı olub, ailələrdə parçalanma gedir. Bir evə qonaq gedəndə görürsən ki, ata bir tərəfdə, ana bir tərəfdə, uşaq da bir tərəfdə başını sallayıb internetə girib. Axırda soruşuram ki, məni niyə çağırmısız?

***- İndiki gənclikdən narazısız, deyəsən?***

- Elə bir dövrdə yaşayırıq ki, həm oğlanlar, həm də qızlar azaddırlar. Lakin gənclər bunu görmür, həyatın dəyərini qiymətləndirmək istəmirlər. Gənclərin dilindən tez-tez bu sözləri eşidirik - "mən yorulmuşam, hər şeydən bezmişəm, darıxıram..." Çünki onlar əziyyət çəkmədən hər şeyə nail olublar. Buna görə də həyat onlara maraqsız gəlir. Bizim dövrümüzdə bu cür şərait yox idi. Dünyanı yalnız xəritələrdə görə bilirdik. Bu gün isə gənclər dünyanın istənilən ölkəsinə gedə, görə bilirlər. Amma həmişə narazıdırlar.



**"Övladım da ailə qurandan sonra yanımdan gedəcək və mən tamamilə tək-tənha qalacam. Tənhalıq çox qorxuludur..."**

İndiki qızlarımız elə gözəldirlər ki, adam heyran olur. Halbuki bizim zamanımızda qadınlar, qızlar bu qədər gözəl deyildilər. Gənc qızlarımızın kaprizləri çoxdur, onlar qayınana, qayınata ilə bir evdə yaşamaq istəmirlər.

***- Qayınananızdan razı olmusuz?***

- Əlbəttə, razı olmuşam, çox yaxşı insan olub. Mən həmişə gəlin kimi onun xidmətində olmuşam. Həmişə "sən bunları ona görə edirsən ki, indi səni çox istəyim? Artistsən də" deyirdi (gülür). Qayınana sözü götürəndə nə olur ki?

***- Ailəniz aktrisa olmağınıza razı idi?***

- Bəli. Anamın da canında aktyorluq var idi. Atam da müasir düşüncəli insan idi, lakin o mənim diktor olmağımı istəyirdi. Aktyorluq sənəti insanın qanında olur. Anam deyərdi ki, sən doğulandan artist olmusan. Yadımdadır, bir gün uşaq vaxtı könlüm kotlet istəyirdi. Anam isə dedi ki, bu gün yalnız dolma yeyəcəyik. Dedim, görün sizin başınıza nə oyun açacam. Qarnımı tutub yıxıldım yerə ki, ölürəm. Bir şivən qopartdım, gəl-görəsən, gözümdən yaşlar gedir, deyirəm ki, öləndə məni filan yerdə basdırarsız və s. (gülür). İndi də yadıma düşəndə uğunuram. Nəysə məni apardılar xəstəxanaya... Elə bildilər kor bağırsağımda problem var və kəsdilər. Əməliyyatdan sonra anam gəlib soruşdu ki, "ay bala, ürəyin nə istəyir?", dedim, kotlet. Dedi ki, "axı həkimlər deyir ki, indi sənə kotlet yemək olmaz". Dedim, bəs bu qədər zıppıltını kotletə görə etmişdim axı (gülür)...

Belə artistliklərim çox olurdu. Uşaqlıqda Batumiyə tez-tez gedirdik. O vaxtlar qaraçı qızları, onları geyimləri çox dəbdə idi. Anama qaraçı sırğaları aldırmışdım, iri qara gözlərim, uzun saçlarım məni qaraçılara bənzədirdi. Batumidə dəniz kənarında başımda yaylıq, əlimdə də kart gəzirdim, guya qaraçıyam. Rus arvadları məni görüb elə bilirdilər ki, doğrudan da qaraçıyam. Beləliklə, onların falına baxırdım. Birinə deyirdim ki, sənin ərin artıq başqa arvad tapıb, digərinə deyirdim ki, sənin sevgilin var və s. Obraza o qədər girirdim ki, onlar mənə inanırdı. Yaxşıca pul yığırdım (gülür).

***- Tomka, Rita, Çevriyyə... Niyəsə ekranlarda sizi yalnız bu tip qadın obrazlarında görürük:***

- Bu, rejissorların seçimidir. Rejissorlar bəzən aktyorlara hansısa obraz möhürünü vurur. Halbuki mən ingilis xanımı Merini, Burla Xatunu, "Pəri Cadu" da Şamamanı, yaşlı ana obrazlarını yaratmışam. Məhz ana obrazına görə mənə əməkdar artist adını verdilər. Aktyorun amplumasi olmamalıdır, aktyor plastilindir, yalnız yaxşı rejissor ondan istədiyi fiquru düzəldə bilər.

***- Tanınmış rejissorlarımız sanki kənarda qalıb...***

- Bu çox pisdir. Onların bəziləri küsüb kənara çəkildilər. Çünki onları köhnəlik kimi qəbul edib uzaqlaşdırdılar, lakin ortalığa da bir şey çıxarda bilmədilər. Dövlət kino, serial çəkilişləri üçün külli miqdarda pul ayırdı. Lakin bu pullar hansısa işbazların cibinə getdi, aktyor və aktrisalar bundan yararlana bilmədi, biz kənarda qaldıq. Kənardan benzin dolduran, mühafizəçilər və digər incəsənətə aid olmayan şəxsləri bu səhnəyə gətirdilər. Doğrudur, son vaxtlar serial, kino sahəsində bir təkmilləşmə gedir, lakin indi də pul yoxdur.

***- Teatrda monotamaşanız olub?***

- Xeyr, amma çox istəyərdim.

***- Hansı obrazla?***

- Bədbəxt, kimsəsiz, talesiz bir qadın obrazını...

***- Niyə məhz bu cür?***

- Çünki biz qadınlar tənha qalmışıq. İndi qadınlarımızın əksəriyyəti qadın kimi xoşbəxt deyil. Bizim üzərimizə çox yük düşüb. Kişilərimiz artıq qadınlarımıza sahib çıxmırlar. Biz kimsəsiz qalmışıq, bu çox ağırdır. Getdikcə zərifliyimizi itirməyə, kobudlaşmağa başlamışıq. Həm kişi, həm də qadın kimi olmağa məcburuq (kövrəlir). Tək övlad böyütmək çox çətinidir.

***- Ayrılmağınıza peşimansız?***

- Ola bilsin ki, zamanında dözməmişəm. İkinci evlilik isə çox nadir hallarda yaxşı olur. Çünki bütün kişilərin xasiyyəti eynidir. Mənə hər zaman evlilik təklifləri olub. Lakin hazırda cəmiyyət, insanlar çox dəyişib, insanlara etibar etmək olmur. Bundan çox qorxuram. Bəli, çox istərdim ki, ailəm olsun. Bir azdan övladım da ailə qurandan sonra yanımdan gedəcək və mən tamamilə tək-tənha qalacam. Tənhalıq çox qorxuludur...

***- Kənardan şıltaq xasiyyətli qadın kimi görünürsüz...***

- Mən, sadəcə, uşaq qəlbliyəm. Amma məndə qadın şıltaqlığı yoxdur. Hamı deyir ki, baxışlarım çox işvəlidir, lakin özüm bunu görə bilmirəm. Uşaqlığımı yaşamamışam, həmişə onun həsrətində olmuşam (gözləri dolur). Hərdən qızım da uşaq kimi sadəlövh olduğuma görə məni qınayır.

***- Bir ara müğənnilik edirdiz. Bu fəaliyyətinizi yenə də davam etdirirsiz?***

- Bəli oxumuşam, aktrisayam da (gülür). "Mənim xınalı gəlinim" mahnısını oxuyurdum və heç də pis alınmırdı (gülür). Uşaqlıqda Zeynəb Xanlarovanın mahnılarını oxuyub onun hərəkətlərini, oxumasını təqlid edirdim. Mənə "balaca Zeynəb" deyərdilər.

Bir vaxtlar pul sarıdan çox korluq çəkirdim, övladımı oxutmalı idim. Buna görə müğənni kimi şou proqramlarda çıxış edirdim. Lakin indi hazırda yalnız xına məclislərinə gedirəm. Kiş məclislərinə getmirəm.

***- Hansı obrazın arzusundasız?***

- Yox, bu barədə danışmayacam. Çünki sonra ağzıgöyçəklər bunu söz edir, sosial şəbəkələrdə əsəblərimə toxunacaq şərhlər yazırlar.

***- Sosial şəbəkədə çox aktivsiz...***

- Bəli, facebookda tez-tez oluram. Məni yaşadan facebook dostlarımdır. Onların mənim çətin anlarımda gözəl sözlər deməsi məni çox ruhlandırır. Bir məsələyə çox pis oluram, yaşım ötür və zamanında məndən aktrisa kimi istifadə edə bilmədilər. Mən hər rolu oynaya bilən təbii aktrisayam, tamaşaçımı obrazımla inandıra bilirəm. Ölüm çox gəncləşib, bizim aktyorların nə qədər ömrü qalıb ki, obrazlar üçün gözləyək? Biz də bu sənətlə yaşayırıq, həyatımızı ömrümüzü bu sənətə həsr etmişik. Teatrın durğun vaxtlarında biz sənətdən getmədik. İndi-indi teatr təmir olunub, hər şey qaydasındadır. Amma həmin dövrlərdə biz o soyuq səhnələrdə sağlamlığımızı qoyaraq obrazlar yaratdıq. Başqaları isə pul qazanmağa, özləri üçün yaxşı şərait, biznes qurmağa başladılar. Biz bir də gözümüzü açıb gördük ki, lüt qalmışıq. Elə bilirdik ki, gələcəyimiz həmişə belə parlaq olacaq. Bilmirdik ki, elə bir zaman gələcək iki, hər şey pulla satılıb, pulla alınacaq...

***- Rejissor Ayaz Salayev bu yaxınlarda gənc aktrisalara səsləndi: "Soyunun. Yoxsa xaricdən aktrisalar dəvət olunacaq və siz səhnəsiz qalacaqsız".***

- Ay bala, soyunun nədir, adi bir işvəli rol oynayanda haqqımızda nələr demirlər. Bəlkə nə vaxtsa bizimkilər də soyunacaq. Bu sənət belədir. İnsanlar fikirləşməlidirlər ki, bu kinodur, obrazdır, obrazdakı isə mən deyiləm. Çox qəribədir ki, xarici filmlərə baxanda bunu normal qəbul edir, amma özümüzünküləri tənqid edirik. Hər halda, soyunmamaq da olar.

***- Hansısa hobbiniz varmı?***

- Bütün günü 1941-45-ci ilə aid filmlərə baxıram. Siz gedən kimi yenə bu cür film tapıb baxacam. İnanmıram ki, həmin müharibəyə aid hansısa filmi izləməmiş olum.

***- Niyə müharibə filmlərinə maraqlısız?***

- Mən o filmlərdən örnək götürürəm. O dövrün vəziyyətinə baxır, bu günə şükür edirəm. Əgər bu gün yeməyə çörək tapırıqsa min şükür etməliyik.

***- Deputatlığa namizəd olmaq istəməmisiz?***

- Millət vəkili o deməkdir ki, sən milləti müdafiə etməli, onun problemlərini həll etməli, ən azından səsini hökumətə çatdırmalısan. Nəinki özünə bağ, bahalı maşın alasan, sürücü tutasan. Mən millət vəkili olsam özümə sürücü tutmayacam, maşınımı özüm sürəcəm (gülür). Eşitdim bu yaxınlarda hansısa rayonda millət vəkilini qovmuşdular. Sən millətinin əlindən tutsan o səni heç vaxt satmaz. Ən yaxın dostun sənə xəyanət edə bilər, amma xalq yox. Kimdir məni deputat seçən. Oranın deputatları məlumdur (gülür).

***- Müsahibələrinizin birində intihara meyilli insan olduğunuzu demişdiz...***

- Bu tənhalıqdan irəli gəlir.

***- Cəhd etmisiz?***

- Yox, sadəcə, ağlımdan keçib. Bir vaxtlar sənət aləmində məni çox incitdilər. Bir tərəfdən rol almamağım, maddi çətinliklər, həyati problemlər məni çox sıxırdı. Eyni zamanda çox xəstə idim və bu barədə heç kimə danışmırdım.

***- Xəstəliyiniz nə ilə əlaqədar idi?***

- Beynimlə bağlı idi. Həkimlər bildirmişdilər ki, yaddaşımı tamamilə itirə bilərəm. Lakin müalicə aldım və hər şey qaydasına düşdü.

**❑ Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 239 (6267) 28 oktyabr 2015

# Bələdiyyədən vətəndaşa qarşı dələduzluq

## Fərmail Nəsirov: "Başqasının torpağını mənə satıblar, indi evdən çıxarmaq istəyirlər..."









**Tovuz rayon sakini Fərmail Nəsirov Balaxanı bələdiyyəsinin onu aldadaraq, külli miqdarda vəsaitini mənimsədiyini iddia edir. Bu barədə zərərçəkən redaksiyamıza şikayət edərək faktları danışıb.**

Nəsirov başına gələnləri belə dilə gətirib: "Qızımın yoldaşı rəhmətə gedəndən sonra onun üçün ev almaq istədim. Maklerlər mənə Balaxanı qəsəbəsində 6 sot həyətyanı sahəsi olan yarımtikili bir evin olduğunu dedilər. Biz razılaşmaq üçün Balaxanı bələdiyyəsinə getdik. Orada bələdiyyənin müavini Qulam adlı şəxs, Ədalət adlı bələdiyyə işçisi və arxitektor vardı. Mənə dedilər ki, bu evin yiyəsi yoxdur, narahat olma. Mən onlara bildirdim ki, bəs onda kim tikib bu evi? Dedilər, narahat olma, gələcək. Bir qədər keçdikdən sonra Müşfiq Əliyev adlı bir şəxs gəldi və bələdiyyə nümayəndələri evin onun olduğunu dedilər. Həmin şəxslə qiyməti danışıb, razılaşdıq. 20 min manata danışdıq və bu məbləğin 10 min manatını öncədən, qalanını isə hissə-hissə ödəyəcəyimi dedim. Müşfiq Əliyev bu təklifimlə razılaşdı. Bələdiyyə nümayəndəsi İsmayıl İsmayılov sənədləri hazırladı və möhürü çıxarıb mənim adıma rəsmiləşdirdi. İ. İsmayılov mənə dedi ki, bu ev sənindir, elə bil 2004-cü ildə almısan, özün tikdirmisən. Mən bunun qeyri-qanuni olduğunu desəm də, mənə bildirdi ki, biz başımızla cavabdehik. Mən qol çəkdim və torpaq vergisi üçün 36 manat pul ödədim. 6.3 ha torpağın sənədlərini hazırladı və maklerə verdi. Dedi ki, sənədi verərsən, birdən pulu verməz".

**Şikayətçi deyir ki, növbəti gün maklerlərin ofisinə gələrək 10 min manat pul gətirib:** "Onlar işlərinin müqabilində 1400 manat istədilər, mən isə onlara 1200 manat pul verdim. Sonra akt yazıldı, müqavilə bağlandı. Qalan məbləği isə 6 ay müddətində ödəyəcəyimə dair sənəd imzaladım. Yenə də israrla evin sahibinin kim olduğunu soruşdum. Bələdiyyə sədrinin müavini Qulam adlı şəxs bildirdi ki, həmin evin yiyəsi axtarılır, qaçıb gizlənib.

Mən həmin evdə təmir işləri apardım. Hər bir şəraitlə təmin elədim. Yerdə qalan 10 min manatı da ödəyib qurtardım. 6 ay keçdikdən sonra Balaxanı bələdiyyəsi məni hədələməyə başladı ki, bu ev başqasının adınadır. İndi mənim evdən çıxmağımı istəyirlər. Onlar mənə saxta sənəd hazırlayıb veriblər. Bu işlərin arxasında Balaxanı bələdiyyəsinin sədr müavini Qulam durur. Mən bu barədə Respublika Prokurorluğa şikayət edəndən sonra Sabunçu rayonunun müstəntiqi mənə zəng elədi ki, gəl sənə evin orijinal sənədini verəcəyəm. Mən ona bildirdim ki, bu işin sonuna çıxacağam. Mən ölsəm də yoldaşım bu işi davam etdirəcək. Bu torpağı məndən əlavə, bir nəfərə də satıblar. O da deyir ki, ev mənimdir. Balaxanı bələdiyyəsi bu yolla bir torpağı bir neçə nəfərə sataraq külli miqdarda pul mənimsəyir. Bu dələduzlar Qulam və Ədalətin işidir. Bələdiyyə sədri gənc xanımdır. Bu dələduzların işindən baş açmır. Həm də saxta möhürlər çoxdur. Kimə gəldi saxta sənəd verirlər. 250 manat ver torpaq sahəsi üçün sənəd hazırlasınlar. Bir sözlə, ədalətsizlik, özbaşınalıq baş alıb gedir. Orada korrupsiya dəstəsi yaradılıb. İndi mənim üzərimə Elmar Orucov adlı şəxs gəlib məni təhdid edir. Məni hədələyir ki, mənim "Bandotel"də vəzifədə qohumum var. Həmin şəxsə də sənəd veriblər. Dələduz bələdiyyə nümayəndələri ona 2012-ci ildə saxta sənəd veriblər. Mən də bildirdim ki, biz sənədləri 2007-ci ildə almışıq. Elmar Orucov həmin axşam gedib bələdiyyə nümayəndəsi Telmandan ilini geriyə çəkmək üçün saxta sənəd alıb. Telman da tez-bazar dizinin üstündə saxta sənəd yazaraq torpağı onun adına keçirib. Bu məsələ ortaya çıxandan sonra, deyilənə görə, Qulamı işdən çıxarıblar. Mən Sabunçu Rayon Prokurorluğunda çalışan müstəntiqə bildirdim ki, bu işi ört-basdır eləməyə qoymayacam. Bu işin sonuna kimi gedəcəm".

**Fərmail Nəsirov Balaxanı bələdiyyəsinin özbaşınalığını, saxta sənəd hazırlamalarını, bir torpaq sahəsini bir neçə nəfərə satmaq kimi dələduzluq əməllərini ictimailəşdirməklə məsələyə aidiyyəti qurumların diqqətini cəlb etməyə çalışdığını və həmin şəxslər haqqında qanuni ölçü götürülənədək bu işi davam etdirəcəyini bildirdi.**

**❑ Məğrur SALMANOV**
**Fotolar müəllifindir**

## Fermer "Parabank" qarşısında özünü yandıracağını deyir

### İqbal Mikayılov: "Məni bu həddə çatdırıblar..."

**Fermer İqbal Mikayılovun üzləşdiyi problemlə bağlı ölkə prezidentinə ünvanlandığı müraciət haqda yazmışdıq. Bu dəfə o, baş prokuror Zakir Qaralova müraciət edib.**

Mikayılov baş prokurora müraciətində yazır ki, prezident İlham Əliyevin sahibkarlığın inkişafına bilavasitə diqqət göstərməsindən, sahibkarlara arxa-dayaq olmasından ruhlanaraq Şirvan şəhərində "İlham" MMC kəndli fermer təsərrüfatı yaradıb:

"Sahibkarlığa Kömək Milli Fondundan ötən il aldığım güzəştli kredit təsərrüfatımın genişlənməsinə çatmadı. İşlər yarımçıq qaldı. "Parabank"ın sədri Vəli Quliyev məni bu ilin aprel ayında aldadaraq 5 ay hissiyyatımla, əsəblərimlə oynadı. Atası Eldar Quliyevin milyonlarına və "krışa"larına güvənən cavan uşaq olan bankir "İlham" MMC adlı kəndli fermer təsərrüfatına düşmən kəsilib. Dövlətimin ayırdığı vəsaitdən imkan vermir ki, istifadə edim və cənab prezidentimiz İlham Əliyevin söylədiyi kimi, aqrar sahəyə gənc sahibkar kimi töhfə verim. Vəli Quliyevə bu ölkədə "gözün üstə qaşın var" deyən tapılmır. Düzdür, Vəli Quliyevin güvəndiyi dağlara artıq qar yağıb. Amma hələ ki bu adamdan soruşan əlaqədar cavabdeh qurum yoxdur ki, dövlət içində dövlət yaratmaqda məqsədin nədir? Nə üçün sən Vəli Quliyev ölkə sahibkarlığına qənim kəsilmisən? Bu dövlətin başçısı İlham Əliyev sahibkarlara əngəl olanlara kimliyindən asılı olmayaraq ən ağır cəzanı verdiyi halda Vəli Quliyev qorxmadan, çəkinmədən və aşkarcasına öz bildiyini edir. "Parabank" sədri məni intihar həddinə çatdırıb. Qərara gəlmişəm gedim "Parabank"ın baş ofisinin qarşısında intihar edim. Ona görə şəxsən Zakir Qaralova müraciət edib xahiş edirəm: cənab prezidentimiz İlham Əliyev sizə inandığı kimi, mən də vətəndaş, sahibkar -fermer kimi sizə inanıb güvənirəm. Rica edirəm məni şəxsən özünüz qəbul edib dinləyin".

**❑ E.MƏMMƏDƏLİYEV**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**
**Əlaqə telefonu: (050) 343-59-72**

**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**
**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**
**Tel: (050) 614-40-24**

YENİ MÜSAVAT
N 239 (6267) 28 oktyabr 2015

# Gürcüstan polisi azərbaycanlının toy mağarına niyə basqın etdi?

## Azərbaycanlıların Borçalıya kütləvi qayıdışı Tiflisdə narahatlıq doğurub; Qazax-Borçalı bölgəsinin xalçaları və Qafqazın atlasına görə Tiflis Bakıya nota vermək istəyir; gürcü tarixçi təzyiqlər qarşısında niyə geri çəkildi?

**Azərbaycan və Gürcüstan arasında nifaq toxumunun səpilməsi istiqamətində destruktiv qüvvələr yenidən ciddi şəkildə hərəkətə keçib. Bunu ötən həftə Tiflisə səfərimiz zamanı ünsiyyətdə olduğumuz ayrı-ayrı azərbaycanlılar da açıq şəkildə söylədilər. Azərbaycanda tarixi həqiqətlərdən bəhs edilən hansısa materialın dərci belə, qonşu ölkədə ciddi şəkildə sərf-nəzər edilir və ölkəmizə qarşı meyllərin baş qaldırması üçün çabalar göstərilir.**



Hətta Azərbaycan Gürcüstanı mavi yanacaqla təmin etməsinə baxmayaraq, ölkənin qaz idxalının Rusiyanın hesabına təmin olunması istiqamətində prosesə start verilib. Adının çəkilməsini istəməyən məlumatlı mənbələrin dediyinə görə, burada əsas funksiyanı gürcüləşmiş ermənilər öz üzərinə götürüb və onlar həm hökumətdə, həm də parlamentdə söz sahibi olduqları üçün Azərbaycan-Gürcüstan əlaqələrini zəiflətmək, Rusiyanın rəsmi Tiflisə təsirini maksimuma qaldırmaq üçün hər şey edirlər. Rusiyanın "Qazprom" şirkətinin Gürcüstana girişinə etiraz əlaməti olaraq müxalifət aksiyalar keçirməyi planlaşdırır. Lakin hələlik hakimiyyətin mövqeləri güclü olduğundan Rusiya projelərinin gerçəkləşməsi ehtimalı böyükdür. Hətta SOCAR-ın yanacaqdoldurma məntəqələrindən yanacaq dolduranlar arasında guya burada satılan yanacağın keyfiyyətsiz olması barədə antitəbliğat aparılır ki, "LUKoil" məntəqələrinə axın artsın. Təxribatlar isə bununla bitmir.

Bir müddət öncə Gürcüstanın Təhsil Nazirliyi Gavaxeşvili Universitetinin rektorunun adına məktub göndərib. Məktubda qeyd olunub ki, Azərbaycanda çap olunan Cənubi Qafqazın xəritəsi və "Qazax-Borçalı bölgəsinin xalçaları" kitabı "Azərbaycanın bəzi qüvvələrinin qeyri-konstruktivliyi və siyasi ambisiyalarının təzahürüdür". Hətta məlumata görə, gürcü tərəfi bu materiallara görə rəsmi Bakıya nota göndərməyi müzakirə edir. Ancaq hələlik rəsmilər hesab edir ki, Bakıya rəsmi cavab vermək lazımdır.

Üstəlik, Azərbaycan həqiqətlərini yayan, Qarabağın erməni işğalında olduğunu hər zaman bəyan edən gürcü tarixçisi Quram Marxulia "Qazax-Borçalı bölgəsini xalçaları" kitabının redaktoru olsa da, onu bu kitabdan imtina etməyə məcbur ediblər. Tarixçi alim hədə-qorxular qarşısında geri çəkilməyə vadar olub. Həmin kitabda Azərbaycan xalçaları ilə bağlı yalnız tarixi həqiqətlər əksini tapsa da, gürcü hakimiyyəti Azərbaycan türklərinin fəallığının artmasından, tarixi ərazilərə qayıdışın intensivliyindən ehtiyatlandığı üçün bu kimi addımlara qərar verir.

Soydaşlarımız deyir ki, xüsusilə də Elat bayramının keçirilməsi və Azərbaycan türklərinin birliyi istiqamətində addımların artması bəzi anti-Azərbaycan qüvvələrinə bəhanə verib. Tiflisdə olarkən öyrəndik ki, "Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli ilə bağlı böyük antitəbliğat işləri aparılır. Gürcü şovinistlər onu "pantürkist" adlandırırlar.












Paralel olaraq gürcü hakimiyyəti erkən evlilik layihəsinə start verib. Keçənilki siyahıyaalınma nəticəsində Gürcüstan əhalisinin sayının 700 min nəfər azalması məlum olub. Gürcü hakimiyyəti də azərbaycanlıların sayının çoxluğundan daha çox ehtiyat etməyə başlayıb. Gürcü demoqrafları azərbaycanlıların sayının ölkə əhalisinin sayının 15 faizini təşkil edəcəyindən ehtiyatlanır. Keçmiş ombudsman, hazırda QHT rəhbəri və alim Nana Devdaryani hökumətə 30 səhifəlik hesabat göndərib. Qeyd edib ki, azərbaycanlılar Gürcüstanda demoqrafik təhlükə mənbəyidir. Bunun üçün də azərbaycanlıların yaşadığı bölgələrdə "erkən nikahların qarşısının alınması" adı altında proses başladılıb. Bu işlər də faktiki olaraq Azərbaycan fəallarının və bəzi QHT-lərin əli ilə həyata keçirilir. Hansı ki erkən evlilik bütün ölkə əhalisində var. Ermənilərdə isə daha çoxdur. Ombudsman qanun layihəsi irəli sürüb ki, erkən nikah halında məhkəmə evliliyə icazə versin. Hazırda erkən nikahlara görə qeyri-rəsmi halda sərt qaydalar tətbiq edilir, cərimələr alırlar. Lakin məsələnin obyektiv tərəfinin olduğunu deyənlər də tapıldı.

**Marneuli orta məktəbinin ingilis dili və informatika müəlliməsi Xalidə Kərimova deyir ki, gürcülər azərbaycanlıların artmından çox narahatdır:** "Yuxari Orzman və Qızılhacılı kəndlərində insident baş verib. Azyaşlı qızlar ərə verilib, rəsmi qurumlara da məlumat çatdırılıb və toy sahibləri hər biri 10 min lari - 5 min manat - cərimələnib. Polis toya müdaxilə edib və xəbərdarlıq edib, toy başa çatandan sonra isə bəylə gəlin polis idarəsinə aparılıb və cərimələr kəsilib. Qanunla 18 yaşda nikaha icazə verilir. Ancaq bəzən 16 yaşında qızlar ərə verilir, bu da problemlər yaradır. Azyaşlıların ailə qurmasına qarşı mübarizə aparılması əslində yaxşı haldır ki, qızlar daha çox təhsilə fikir versinlər. Amma çox sərt üsullar da insanları narazı salır".

**X.Kərimova deyir ki, artıq azərbaycanlılarda qızların ali təhsil almasına maraq artıb:** "Tiflisdə universitetlərin hazırlıq kurslarına qəbul olanların əksəriyyəti qızlardır. Azərbaycan da bu məsələdə bizə yardımçı olur. SOCAR-ın köməkliyi ilə gənclərimiz ali təhsil almaq imkanı qazanır. Bir-iki erkən nikah faktı olanda isə rəsmi qurumlar bu faktları daha çox tirajlayırlar. Gürcü tərəf 4+1 proqramı ilə Azərbaycan uşaqlarının daha çox maarifl ənməsinə çalışır".

Gürcüstanın "Meydan bazar" adlı tarixi ünvanında adətən azərbaycanlılar toplaşıb mərasimlər keçirirdi. İndi isə ermənilər əlamətdar günlərdə bu yeri ələ keçirirlər. Həmin ünvanda Sayat Novanın abidəsinin qoyulması artıq ermənilərin əlinə əlavə arqument verib. Tiflisin hamamlar məhəlləsi kimi tanınan "Şeytanbazar"ında vaxtilə minlərlə azərbaycanlı ailə yaşayıb. Ancaq hazırda orada soydaşlarımızın sayı ermənilərlə müqayisədə azlıq təşkil edir. Ermənilər azərbaycanlıların mülklərini zor-xoş ələ keçirib, ya da aşağı qiymətə satın alıblar.

Nəriman Nərimanovun adını daşıyan muzeyin dağıdılması, Heydər Əliyevin adına teatrın təmirsiz vəziyyətdə olması, digər bu kimi faktlar da soydaşlarımızı üzür. Rəsmi Bakının məsələyə müdaxiləsini xahiş edirlər. Ancaq ürəkaçan nümunələr də var. Gürcü dilinin öyrənilməsi prosesi isə sürətlənib. Marneulidə gürcü evləri açılıb, hətta təhsilsiz yaşlı insanların da gürcü dilini öyrənməsi imkanı yaradılıb. Aşıq Nargilə Mehdiyeva deyir ki, Londondan yenicə qayıdıb, ardınca Fransa və Hollandiyaya dəvət alıb. Eyni zamanda M.F.Axundov adına muzeydə də dərs keçir. Deyir ki, tələbələri arasında iki ingilis, bir gürcü də var.

Gürcüstan hakimiyyəti isə vəziyyətin getdikcə ağırlaşmasını yaxşı dərk edir. Belə bir ərəfədə azərbaycanlıların qayğısına qalmaq üçün xüsusi proqramın həyata keçirilməsi o qədər də real görünmür. Torpaqları əllərindən alınan, toponimləri dəyişdirilən, zaman-zaman paytaxtdan sıxışdırılıb çıxarılan insanlara illərdir sadəcə vəd verilir. Gürcü və ermənilərdən fərqli olaraq azərbaycanlılar daha səbirli və siyasi proseslərdən uzaqda durmağı üstün sayan toplumdur, bunu Tiflisdə də yaxşı bilirlər. Ancaq ölkədə vəziyyət ağırlaşdıqca, lari ucuzlaşdıqca əhalinin etirazları da artır. Artıq elektrik enerjisi bizim pulla 5 qəpik, benzin 15 qəpik bahalaşıb. Hökumət ucuzlaşma vədi versə də, təqribən 6 ay ərzində qiymətləri endirsə də, daha sonra bahalaşmaya qərar verib. Bu da ictimai etirazı artırır. Tiflisdə dedilər ki, gürcü hökumət qarşıdakı qışdan necə çıxacağını düşünür, azərbaycanlıları yox. Üstəlik, 300-500 min nəfər arasında olduğu deyilən azərbaycanlı toplumun parçalanmış durumda olması da gürcü hökumətin işinə yarayır. Hətta bəzən parçalanmaların stimullaşdırılması işində soydaşlarımız da iştirak edir...

**❑ E.PAŞASOY**
**FOTO: "YM"**

# YENİ MÜSAVAT

Son səhifə

*N 239 (6267) 28 oktyabr 2015*





## Əkizlər 54 il sonra doğmalarını tapdılar

Amerikalı bir ailə tərəfindən övladlığa götürülən əkizlər 54 il sonra gerçək ailələrini tapıblar. 1960-cı ildə İtaliyanın Palermo şəhərində dünyaya gələn bacılar anaları doğuşdan bir neçə saat sonra öldüyü üçün yetimxanaya veriliblər. Bir müddət sonra isə Amerikada yaşayan bir ailə qızların hər ikisini övladlığa götürüb. Bennet və Lisa adlı bacılar bir neçə il əvvəl onları böyüdən analarını itirdikdən sonra gerçək ailələrini axtarmağa başlayıblar. Onlar uzun müddət Valenziano soyadı ilə atalarını axtarsalar da heç bir iz əldə edə bilməyiblər. Bir müddət əvvəl İtaliyaya gedərək ailələrini axtarsalar da, heç kəsi tapmağa nail olmayıblar. 1 il əvvəl isə facebook sosial şəbəkəsində Aleksandr Valenziano adlı əmisi oğlunu tapıb. Ona mesaj yazsa da, 1 il müddətində cavab gəlməyib. Bir neçə gün əvvəl isə başqa bir əmisi oğlunu tapıb və ona mesaj göndərib. 2 saat sonra mesajına cavab alan Bennet hisslərini belə ifadə edib: “Məni böyüdən anam hər zaman atamın bizi övladlığa vermək istəmədiyini deyirdi. O, biz doğulduqdan 18 ay sonra məcbur qaldığı üçün bu qərara gəlib. Ona görə də heç vaxt atama nifrət etməmişəm. Əmim oğlu mənə cavab yazdığı zaman çox sevindim. Aprel ayında gerçək ailəmizin yanına gedəcəyik və həmin günü səbirsizliklə gözləyirik”.

## Xurma ürəyi də qoruyur

Xurmanın tərkibində xeyli sayda zülallar, karbohidratlar, üzvi turşular, antioksidantlar vardır. Eləcə də kalsium, maqnezium, dəmir, fosfor, A, C vitaminləri ilə zəngindir. Antioksidantları xüsusilə vurğulamaq lazımdır. Çünki antioksidantlar bədənə düşən toksinləri, zərərli maddələri orqanizmdən çıxarmağa kömək edir. Bu meyvə ürək-damar sistemi xəstəliklərinin müalicəsində əhəmiyyətlidir. Tərkibində çoxlu sayda şəkər, qlükoza olduğundan ürək-damar sisteminə yaxşı təsir göstərir. Lakin şəkərli diabet xəstələrinə və piylənmədən əziyyət çəkənlərə tövsiyə olunmur. Xurma eyni zamanda qansızlıq, vitamin azlığı, mədə-bağırsaq xəstəliklərində də yararlıdır. Davamlı yeyildikdə ishalı kəsmək, iştaha açmaq, mədə qastritinin qarşısını almaq, bağırsaq iltihabını yaxşılaşdırmaq kimi xüsusiyyətləri var. Həzm fəaliyyətini



asanlaşdırır. Tərkibindəki maqnezium böyrəklərdə daşın əmələ gəlməsinin qarşısını alır. Sidikqovucu təsirə də malikdir. Əsəb sisteminə müsbət təsir göstərir. Stress və gərginliyi azaldaraq bədənə rahatlıq verir. Xurma müxtəlif vitaminlərlə zəngin olduğundan hamilə xanımlara da faydalıdır. Tərkibindəki A vitamini bədənin müqavimətini artırır, dəmir isə qan azlığı baxımından faydalıdır. Xurma yeməklə dəmir ehtiyacının bir qismini qarşılamaq mümkündür.

## Qırmızı ət xərçəngə səbəb olur

Ümumdünya Səhiyyə Təşkilatı (WHO) emal olunmuş ətin xərçəngə və qan-damar sisteminin tutulmasına səbəb olduğunu bildirib. ANS PRESS-in məlumatına görə, təşkilat ekspertləri əsasən hisə verilmiş və qaxac edilmiş donuz əti, həmçinin kolbasa və sosisləri bu qəbildən olan ət məhsulları siyahısına aid ediblər. Sözügedən ərzaqlar insan həyatı üçün olduqca təhlükəli məhsullar hesab olunur. Ekspertlər bu məhsulları arsen, alkoqol, siqaret və asbest maddələri ilə müqayisə ediblər. Siyahıda risk daşıyan qrup arasında ikinci yerdə qırmızı ət - mal əti, qoyun əti və donuz əti qeyd olunur. Lakin quş əti risk qrupuna aid edilmir. “Ümumdünya Səhiyyə Təşkilatının məruzəsi çoxsaylı dəlillərə əsaslanır. Onlar son dərəcə dəqiqliklə əldə olunan məlumatları araşdırıblar. Qeyd etmək lazımdır ki, yekun nəticə həqiqətən də ürəkaçan deyil. Görünür, qırmızı ət insanda bilavasitə müxtəlif formalı xərçəngin yaranmasına səbəb olur.” - deyə dietoloq Linda Conson bildirib. Ümumdünya Səhiyyə Təşkilatının məruzəsində qeyd olunur ki, insanın gün ərzində 50 qram qırmızı ət məhsulu yeməsi bağırsaq xərçəngi riskini 18 faiz artırır.





## Silikondan hazırlanan gerçəklik...

İnternetin ən böyük araşdırma sistemi olan "Google" şirkəti Kaliforniyadakı mərkəzinə dəvət etdiyi bir qadını qeyri-adi şəkildə sevindirib. "Google" şirkətinin işçiləri 97 yaşlı Olive Horrel adlı qadını silikon vadisində gəzdiriblər. Belə ki, onlar qadını gələcəkdə satışa çıxarılacaq olan yeni texnologiya vasitələri ilə tanış ediblər. Yaşlı qadın şirkətin hazırlamış olduğu “gerçəklik cihazı”nın ona xüsusi təsir etdiyini eyib. Horrelin sözlərinə görə, orada olan hər şey cansız olsa da gerçəklikdən fərqlənmir. Atlar belə gerçək atlardan seçilmir. Yaşlı qadın həyatının ən gözəl günlərindən birini orada keçirdiyini deyib və həmin gün üçün şirkət rəhbərliyinə təşəkkürünü bildirib.




**QOÇ** - Gözəl fəslin bu gözəl yarpağında varlanma ehtimalınız böyük olacaq. Odur ki, pulla bağlı nə qədər planlarınız varsa, məhz bu təqvimə təyin edin. Sağlıq durumunuz qismən yaxşılaşacaq.

**BUĞA** - Mənfi enerjili Ayın sizin bürcdə qərar tutması əksər sahələrdə, ələlxüsus da qarşılıqlı münasibətlərdə sabitliyi poza bilər. Tələsik qərar çıxarmaq yolverilməzdir. Səhhətinizi qoruyun.

**ƏKİZLƏR** - Səhhətinizlə bağlı xırda problemlər olsa da, bu, ümumi işinizə mane olmayacaq. Hətta şəxsi büdcənizi artırmaq üçün də imkan qazanacaqsınız. Riskli və yeni işləşə baş qoşmayın.

**XƏRÇƏNG** - Bu gün sülh günü, barışıq günüdür. Odur ki, mübahisələri münaqişəyə çevirməyin. Ədalətsiz adamlardan ədalət ummayın. Unutmayın ki, insanın oturuşmuş xarakterini dəyişmək mümkün deyil.

**ŞİR** - Başlıca məsələ maliyyə durumunu yaxşılaşdırmaqdır. Əgər bu istiqamətdə əzmkarlıq nümayiş etdirsəniz, mütləq qazanacaqsınız. Bu gün yersiz risklərdən uzaq olun ki, başınız ağrımasın.

**QIZ** - Yaxşı olar ki, bu günü bütünlüklə pul məsələlərinə həsr edəsiniz. Mənasız məsrəflərə çox xərc çəkməyin. Çünki qarşıdakı həftədə cərəyan edən proseslər maddi durumunuzdan asılı olacaq.

**TƏRƏZİ** - Qida rejiminə xüsusi diqqət yetirin. Bu, sağlamlığınızı qorumağın başlıca üsulu ola bilər. Fiziki zəifliyinizi aradan qaldırın. Əgər evdə iştahasız olursunuzsa, qonaq gedin.

**ƏQRƏB** - Gündəlik fəaliyyətinizdən tutmuş şəxsi işlərinizə qədər hər şey olduqca standartdır. Bu səbəbdən vəziyyətiniz normal olanda da darıxırsınız. Bəlkə belə məhdud çərçivədən çıxasınız?!

**OXATAN** - Ümumi ovqatınızda pis heç nə olmayacaq. İşlə bağlı problemləriniz də məhz bu gündən qaydasına düşəcək. Təxminən saat 16-dan sonra isə əsas diqqətinizi sağlamlığınıza yönəltməlisiniz.

**OĞLAQ** - Təzadlı bir gün yaşayacaqsınız. Əsəblərinizi tarıma çəkənlər də olacaq, sizə sevinc bəxş edənlər də. İnsanları tanıdığınız üçün müsbət enerjililərə daha yaxın olun. Evə gec getməyin.

**SUTÖKƏN** - Neçə gündən bəri davam edən daxili gərginlik nahar ərəfəsində səngiyəcək. Amma üzərinizə düşən əsas vəzifə məsuliyyətinizi artırmaq olmalıdır. Axşam qonaqlıqda iştirakınız gözlənilir.

**BALIQLAR** - Ötən günlərdəki gərgin halınızdan əsər-əlamət qalmayacaq. Rastlaşdığınız adamlar çöhrənizə təbəssüm bəxş edəcək. Dostluqda sədaqət göstərənlərlə əlaqələrinizi daha da dərinləşdirin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Təqaüdünü almaq üçün anasının ölümünü gizlətdi



Rusiyada bir kişi ölmüş anasını duzla mumiyalayaraq 3 il təqaüdünü alıb. Rusiyanın Yesentuki şəhərində polislər 3 il əvvəl ölmüş 90 yaşlı qadın cəsədi tapıblar. Rusiya polisinin verdiyi məlumata görə, oğul anası öldüyü zaman onu torpağa basdırmaq əvəzinə mumiyalayaraq evində saxlayıb. Adı açıqlanmayan Rusiya vətəndaşı çox sevdiyi anasından ayrılmamaq üçün bu yolu seçdiyini deyib. Polislər kişinin anasının təqaüdünü 3 ildir aldığını təsbit ediblər.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.